# FƏTULLAH GÜLƏN
# VƏ
# FƏTULLAHÇILIQ

# MÜQƏDDİMƏ

Tanrı bəşəriyyəti ideologiyası ilə birlikdə yaratdı. Təsadüfi deyil ki, ilk insan olan Adəm (ə) həm də Allah elçisi, din rəhbəri idi. Yaradan insanı digər canlılardan fikir və düşüncəsi ilə fərqləndirib. Düşünmək qabliyyətinə malik varlığı isə yalnız fikir cərəyanı, ideologiya yönəldə, irəli apara bilər. Bu səbəbdən də Allah insanla birlikdə onun fikir cərəyanını – dini yaratdı. Allah Adəmdən bu günə qədər bəşər cəmiyyətlərinə inkişaf səviyyələri, düşüncə tərzlərinə görə dinlər, yəni ideologiyalar göndərdi. Tanrı dini insanlara haqq yolu göstərir və bu yol onların ötəri dünya həyatı imtahanından başarılı çıxmalarına yardım edir. Amma şeytan da bu müddətdə boş oturmadı. İnsanın bu xüsusiyyətindən (buna bəzi məqamlarda zəiflik də demək olar.red) istifadə edib azdırıcı, batil ideologiyalar yaradaraq zəif insanları öz arxasınca apara bildi.

Bu gün bəşəriyyət elmi-texniki cəhətdən nə qədər inkişaf etsə də onun əsas hərəkətverici qüvvəsi ideologiyalar olaraq qalır. Doğru və ya yanlış, maddiyat və ya mənəviyyata doğru istiqamətlənməsindən asılı olmayaraq insan cəmiyyətlərinin hərəkətverici qüvvəsi fikir cərəyanlarıdır. Tarix dəfələrlə sübut edib ki, heç bir maddi mükafat və qorxu hesabına əldə oluna bilməyən nəticəni müəyyən bir fikir və ya ideologiyanın daşıyıcıları yalnız öz inamlarının gücü ilə əldə etmişlər. İdeologiyalar da sanki atom enerjisi kimidir. O bəşəriyyətin tərəqqisi üçün də, məhvi üçün də eyni dərəcədə istifadə oluna bilir. Və təcrübə göstərir ki, mənfi istiqamətdə olan ideologiyalar bəşəriyyətə atom silahından az zərər vurmur, bəzən də daha böyük fəlakətlərə səbəb olur.

Tarix elmi ekspansiyaların (müdaxilələrin) 3 növünü qeydə alıb. Bunlar hərbi, maliyyə və ideoloji ekspansiyalardır. Yaxın keçmişə qədər imperiyalar başqa ölkələri əsarət altına almaq üçün hərbi ekspansiyalara üstünlük verirdilər. Böyük dövlətlər bəzən hətta bəhanə belə göstərmədən qonşu ölkələrə hərbi müdaxilə həyata keçirir, silah gücünə onları əsarət altına alırdılar. Ekspansiyanın ikinci növü maliyyə əsarətidir. Ötən əsrdə "dəbdə" olan bu cür ekspansiyaların əsas "silahı" pul idi. İri dövlətlər zəif ölkələrə borc verərək onları iqtisadi əsarət altına alır və özlərindən asılı vəziyyətə salırdılar. Bu cür ekspansiya tədrici olsa da az itki ilə başa gəldiyi üçün daha səmərəli idi. Ancaq həm az itki hesabına başa gəlməsi, həm də uzunömürlü olması baxımından ən effektli ekspansiya ideoloji ekspansiya idi. Yuxarıda qeyd etdiyimiz kimi, hərbi ekspansiyalar böyük maliyyə və insan itkiləri hesabına başa gəlir və bir çox hallarda güclü xalq müqavimәti ilə rastlaşaraq fiaskoya uğrayırdı. Xüsusən də 20-ci əsrin ortalarından başlayaraq müstəmləkə xalqlarında azadlıq hərəkatları yaranması nəticəsində müstəmləkə imperiyaları dağıldı. Təxminən həmin dövrdə ortaya atılan maliyyə ekspansiyası siyasəti bir müddət işlək olsa da, müasir dövrdə ona bir o qədər də üstünlük verilmir. Çünki bu siyasət hərbi ekspansiya ilə müqayisədə güclü insan tələfatı ilə nəticlənməsə də böyük maliyyə itkiləri və uzunmüddətli iş tələb etdiyi üçün o qədər də effektli (hərçənd ki, imperialist dövlətlər hələ də hər üç ekspansiya növündən kifayət qədər yararlanırlar.red) olmadı.

İmperialist ideoloqların kəşf etdiyi ən effektiv əsarət maşını bu gün formaca dəyişməsinə baxmayaraq ideoloji ekspansiya olaraq qalır. İdeoloji müdaxilə heç bir insan tələfatı olmadan, digər alternativlərindən qat-qat ucuz başa gəlməklə yanaşı, həm də ən uzunömürlü və təsirlidir. Bir neçə yüzil öncəyə qədər missioner keşişlərin vasitəsilə aparılan və o qədər də üstünlük verilməyən fikirlərdə əsarət siyasəti bu gün çoxlu sayda beyin mərkəzləri - araşdırma institutları, analitik-informasiya qurumları – tərəfindən işlənib hazırlanaraq fərqli istiqamətlərdən həyata keçirilir.

...1812-ci ildə Napaleon Rusiyaya hücum edəndə rus zadəgəanları "mühüm" sual üzərində baş sındırırdılar: Rus çarı 2-ci Aleksandrın, yoxsa Napaleonun tərəfində vuruşsunlar. Bu sualı doğuran satqınlıq və ya başqa səbəb deyil, nə qədər qəribə də olsa fransız dili və mədəniyyəti idi. O zamanın bütün rus zadəganları arasında fıransız dilində danışa bilməmək qəbahət sayılır, hətta ailə söhbətləri bu dildə aparılrdı. Gənc rus zadəganlarının böyük əksəriyyəti Fransa ali məktblərində təhsil alır, ən azı bir neçə il Parisdə yaşamaqları ilə fəxr edirdilər. Dünyanın ən böyük imperiyasının baş sarayında fransız dili hakimlik edirdi. Məhz fransız dili və mədəniyyətinin təsiri altında olan rus zadəganları hansı tərəfdə olmaq barədə tərddüd keçirirdilər...

Hazırda ideoloji ekspansiya ən kamil formada həyata keçirilməkdədir. Qərbin imperialist dairələri ideoloji təbliğat maşınını bütün qüvvəsilə işə salıblar. Dünyanın bütün nöqtələrində plan və proqrama əsaslanan təbliğat həyata keçirilir. İdeoloji ekspansiyanın silahları isə çoxnövlüdür. Bura demokratiya, insan haqları, kütləvi

mədəniyyət, Qərb həyat tərzi, fərdin sərhədsiz azadlığı və başqa-başqa cazibəli təsir vasitələri daxildir. “Üçüncü dünya ölkələri”nə davamlı olaraq Qərb həyat tərzini təbliğ edən filmlər, seriallar, kitablar, çap məhsulları yayılır. Qərb fondları tərəfindən maliyyələşən minlərlə Qeyri-Hökumət Təşkilatları bu ölkələrdə inkişaf etmiş ölkələrin dəyərlərini təbliğ edir. Yarıdılmış təhsil müəssisələri ilə yanaşı bu qurumlar Qərb həyat tərzinin pərəstişkarlarını yetişdirir. Kosmopolit təfəkkür tərzinin daşıyıcıları hər gün öz mədəniyyət və köklərindən adım-adım uzaqlaşmaqla yanaşı, öz ölkələrində Qərb işğalının “əsgərləri” funksiyasının həyata keçirirlər.

Məlum olduğu kimi, din insan kütlələrini ən güclü şəkildə öz ardınca aparmağa qadirdir. Heç bir fəlsəfi, elmi cərəyan hətta ən zəif, batil dinlər qədər tərəfdara malik deyil. Din amilinin bəşər cəmiyyətinə əsaslı təsiri olmasını Qərb ideoloqları yaxşı başa düşürlər. Bu səbəbdən də Qərbin ideoloji ekspansiyasının əsas ağırlığı dinlərin üzərinə düşür. Bu gün demək olar ki, dünyanın bütün aparıcı dinləri içərisində Qərb imperializminə xidmət edən təriqətlər mövcuddur. Dinin Şərq xalqlarına əhəmiyyətli təsirini bilən Qərb ideoloqları Şərqi əsarət altına almaq üçün din amilindən yararlanmağa çalışırlar. Məhz Qərb müstəmləkəçilərinin xeyir-duası ilə hələ 200 il öncə İslam coğrafiyasında İslam adı altında təriqətlər, cərəyanlar yaradıldı. Bu siyasət daha sonralar uğurla davam etdirildi və bu gün bir sıra müsəlman ölkələrində Qərbə “dost” münasibətdə olan İslamçı hərəkatlar, təriqətlər mövcuddur.

Əlinizdəki bu kitabda müsəlman ölkəsində yaranmış və əsas təbliğat vasitəsi İslam dəyərlərindən

ibarət olan bir hərəkatdan bəhs olunur. Ötən əsrin əvvəllərində Türkiyədə Səid Nursi tərəfindən yaradılmış Nurçuluq hərəkatı bu gün müsəlman dünyasının ən aktiv fəaliyyət göstərən cərəyanına çevrilib. Kitabda nurçuluğun ən aktiv qolu olan Fətullahçılıq təriqəti haqda məlumatlar var. Burada fətullahçı təriqətin fəaliyyəti, təriqət rəhbərinin çıxışları qeyd olunub. Bu kitab oxucular üçün iki məqamına görə əhəmiyyətlidir. Birincisi, oxucu fətullahçılıq təriqətinin Türkiyə daxilində və xaricdə həyata keçirdiyi bir sıra işlərlə tanış ola, bu fəaliyyətin mənfi və ya müsbət tərəflərini öyrənə bilər. İkinci, ən əsas məqam isə bu kitabın müsəlman ziyalılarının faydalanması üçün bir vəsait rolunu oynamasıdır. Oxucu fətullahçı təriqətin müasir dünya təcrübəsinə əsaslanan təbliğat üsulları və vasitələri ilə yaxından tanış ola, bu üsul və vasitələri yaşadığı cəmiyyətdə sağlam İslami dəyərlərin təbliğinə yönəldə bilər. Bu, gör-götür dünyasında hətta düşməndən də öyrənmək zəruridir. İnanırıq ki, ağıllı, şəraiti düzgün dəyərləndirməyi bacaran müsməlman ziyalıları bu və digər bu kimi ədəbiyyatlardan faydalanaraq milli-mənəvi dəyərlərin xarici müdaxilələrdən mühafizəsi uğrunda mübarizədə istifadə edəcəklər.

Kitab bir neçə fərqli mənbələrdən götürülmüş məqalələrdən ibarətdir. Məqalələr nurçuluğun tarixi, təbliğat üsul və vasitələri, təriqət rhbərlərinin yönləndirici çıxışları, həmçinin təriqətin ABŞ-la əlaqələri barəsindədir. Eyni zamanda təriqətin Azərbaycandakı fəaliyyətinə həsr olunmuş yığcam məqalə yerləşdirilib. Bu səbəbdən də yazılarda müəllif üslubları mümkün olduğu qədər hifz olunub.

# BİRİNCİ FƏSİL

## FƏTULLAHÇILIQ BARƏSİNDƏ BİLDİKLƏRİMİZ

## BİR NUR TƏLƏBƏSİNİN TƏŞKİLAT HAQDA SÖYLƏDİKLƏRİ

### 1.FƏTULLAH GÜLƏN

Fətullah Gülən kövrək insandır. Təriqətin çap orqanlarındakı yazıları və “Sızıntı” jurnalında dərc olunan şerlərindən bunu anlamaq mümkündür. Fətullahçıların böyük əksəriyyətinin gözündə “Mehdi”, yəni son xilaskardır. Onun səhv etdiyini kimsə ağılına gətirməz. Çünki insanlara qeybdən məlumatlı və insanlardan üstün yaradılmış varlıq kimi tanıdılır. Bizi buna inandırmışdılar. İnsandan üstün bir varlığın hər sözünə inanılır, çünki siz çirkab içərisindəsiniz, günaha batmısınız. Amma o, yəni lider, sizdən çox üstündür, sizin bilmədiyiniz bir nöqtədən, qeybdən xəbər gətirən bir insandır. Nurçulara görə camaatın əsas lideri Peyğəmbər (s), fikir lideri Səid Nursi, günümüzdəki rəhbəri isə Fəthullah Güləndir, bu fikir ardıcıl olaraq beynimizə yeridilirdi.

**2-Cəmiyyət üzvlərini bir birinə bağlayan əsas bağlar:**

Nur təriqətini güclü, diri saxlayan təşkilat daxilində yuxarılara itaət, özündən böyüklərin dediklərini sorğu-sualsız yerinə yetirməkdir. Bundan başqa təşkilat üzvlərini birləşdirən digər vasitə hissdir. Hissiyyatlı birlik cəmiyyət üzvlərini bir birinə yapıştırıcı yapışqan kimi bağlayır. Təriqətdə liderə rabitə, yəni tam bağlılıq çox mühümdür ve ana ünsürlərdən birini təşkil edir. Qərb cəmiyyətlərində İntibahdan sonra sistemlər ve düşüncələr, Şərq xalqlarında isə qədimdən bəri şəxsiyyətlər, fərdlər tarixə təsir edib. Buna görə də lider anlayışı fətullahçı təriqətin birliyi və möhkəmliyi üçün çox önəmlidir.

**3-Təriqətin vəzifələri, əsas hədəfi, gələcəyə baxışı:**

Unutmaq olmaz ki, Fəthullah Gülənin son hədəfi və arzusu, Fəthullahçıların son məqsədləri Türkiyə liderliyində İslam Birliyi və tanrının sözünün ictimai hayatda əsas olmasıdır. Bu niyyətin ifadəsi üç kəlmədən ibarətdir: **İman-həyat-iqtidar**. Onlara görə Səid Nursi iman diriliyini qoruyub saxlamışdır. İndiki dönəm isə imanı həyata keçirmə və yaşatma dönəmidir. Bundan sonrakı "Qızıl nəsil" isə hakimiyyəti ələ alacaq. Təriqətin bütün fəaliyyəti Türkiyədəki siyasi və iqtisadi güc mərkəzlərində söz sahibi olmaq və böyük gəlir mənbələrini ələ keçirməkdir. Fətullahçılar İslamın siyasi üzünü göstərməkdən çox "Liberal İslam" şüarını əsas tutaraq məqsədlərinin bütün insanları biraraya gətirən tolerantlıq fəlsəfəsini yaymaq olduğunu təbliğ edirlər. Universit fəaliyyətinin bir qolu da gənclərə Gülən təriqətinin hər hansı bir şəkildə Türkiyədə dünyəvi, demokratik quruluşu pozacaq bir

hərəkat deyil, yalnız türk insanını maarifləndirmə cərəyanı olduğu təölib etməkdir. Bu təbliğat üçün xüsusi olaraq hazırlanmış kasetler də mövcuddur. Məsələn, türkdilli respublikalarda açdıqları məktəblər və orada yetişən uşaqların Türk mədəniyyətini necə öyrəndikləri haqda hazırlanmış video kasetler vardır. Amma bu gənclərə "rəhbərlik fəaliyyəti" adı altında camaat təlimlərinin öyrədildiyi haqda məlumat verilmir.

**4-Təşkilatlanmanın üsul və əsasları:**

Hədəf kütlə orta məktəblərin son sinifində və litseylərdəki gənclərdir. Çünki gənclik cahil olmaqla yanaşı, idealist olur. Təbliğat zamanı uşağın ailə vəziyyəti və şəxsi durumuna görə aylarla dinlə bağlı bir şey söyləməyə bilərlər. Zahirdə görülən iş bu gənclərlə bir böyük kimi davranmaq, onlara dərslərində yardımçı olmaq və gələcəyə aid planlarda yol göstərməkdir. Lazımı vəziyyətə çatdıqda Fətullahçı təlimi verilməyə başlanır. Gənc nə qədər bacarıqlı olsa nailiyyət miqdarı o qədər yüksək olur. Təriqətin ana hədəfi böyüməkdir. Bunun da yolu məktəblərin ətrafında təşkilatlanmadan keçir.

Gülənə görə böyümənin iki qolu vardır: Oxuyan gənclər və əsnaf (xırda ticarətlə məşğul olanlar). Gənclər təriqətin insan, əsnaf isə yardım və para qaynağıdır. Fəthullah Gülənə görə camaatın lokomotivi Anadolu insanı ve onların fəaliyyətidir. Məlum bir zamana qədər camaatın ana hədəfi təhsil olduğu üçün yalnız müəllim yetişdirməyə çalışırdılar. Ancaq təşkilat böyüdükcə bu siyahıya digərləri də əlavə olundu. Bu gün saatsazdan mühəndisə qədər hər bir sənət sahibi yetişdirməyə qadirdirlər. Amma ağırlıq

hələ də təhsil və müəllimlərin üzərindədir. Çünki gənclər ilə işləyən yeganə ixtisas qrupu müəllimlərdir.

Hərbi məktəblərə və litseylərə yerləşdiriləcək uşaqlar gizli şəkildə təlimatlandırılır. Bu uşaqlar özəl evlərə gedirlər. Təşkilatın vəzifəlilərindən başqa digər şəxslər bu evlərdə nə baş verdiyini bilməzlər. Çünki təriqətin adamlarını yerləşdirmədiyi tək qurum ordudur. Fəthullah Gülənə görə ordu, hüquq, təhsil və mülkiyə təşkilatlanılması vacib olan qurumlardır. Universitetə hazırlaşan gənclərin özlərinə məxsus hazırlıq kurslarına yerləşdirməyə çalışırlar. Universitetə hazırlıq kursları ən aktiv və məhsuldar çalışan orqanlardır. Bura böyük insan qaynağı və maddi dəstək ayrılır. İstanbulda "FEM kursları", İzmirdə "Akyazı" ən aparıcı kurslardır.

Ev hazırlıq kurslarının da fəaliyyəti yüksək səviyyədədir. Camaatın 1990-cı illərdə güclənmiş digər önəmli orqanı orta səviyyədə, indi isə yüksək səviyyədə qurulan təhsil qurumlarıdır. Məktəblər yataqxanalı olduğundan şagirdlə yaxın əlaqə yaratmaq və insan qazanmaq üçün daha effektlidir. Bu məktəb və kurslarda təhsil digər məktəb və kurslardakından daha yüksəkdir. Çünki kadrların içərisində işi pul üçün deyil, öz əqidələri üçün edən çoxlu insan vardır. Uşaqların litsey dövründə həftə sonları gördükləri diqqət və isti ev yeməkləri onları sonradan təşkilat əməkdaşı etmək üçün yetərlidir. Bir az analiz edilərsə əslində camaatın adam qazanma üslubunun çox da ürfani olmadığını görmək olar. Fəthullah Güləni və camaatını tanıdan əsas işarələr qısaca bunlardır.

Türk insanı son iki-üç yüz ildə İslamdan uzaqlaşması səbəbindən material və ruhani baxımdan geri qalmışdır. Nurçuluq hərəkatının bir qolu olan Fəthullahçılıq görüşü 20-ci yüzilikdə insanın tanrı inancından uzaqlaşdığını, bu uzaqlaşmanın ona dünya həyatında qəmginlik və rahatsızlıq gətirdiyini, o biri dünyada isə insanları cəhənnəmə aparacağını aşılayır. Dolayısı ilə dinin insan hayatında ən önəmli faktor olduğu və türk insanını dinsizlik girdabından qurtarmağın vacib olduğu, bu vəzifənin isə yer üzündə bu camaatın (yəni fətullahçılar) çiyinlərinə tanrı tərəfindən qoyulduğu dəfələrlə kasetlərdə və moizələrdə söylənilir.

Fəthullah Gülənə görə hər nəfəsimizdə İslam dininə uyğun olmalıyıq. Fənn elmlərini və texnologiyanı öyrənmək lazımdır. Amma bunun da məqsədi müasir inkişaf deyil, tanrıya daha çox yaxınlaşmaq olmalıdır. Həyatın məqsədi birbaşa və ya dolaysı ilə də olsa Allaha xidmətdir. Təriqətin üzvlərinə təşkilatdan kənarda bir həyatın cəhənnəm olduğu ardıcıl olaraq təlqin olunur. Eyni zamanda təşkilatdan çıxanların bir daha bağışlanmayacağı və cəhənnəmə atılacağı haqda fikirləri kasetdə dinlədim. Hər kəsə Nur şagirdinin fədakar olması təlqin olunur.

## 5-Cəmiyyətdə iyerarxik sistem:

Təşkilatda yüksək bir iyerarxik (vəzifə bölgüsü) sistem vardır. Fətullahçılar Türkiyədə ordudan sonra ən yaxşı təşkilatlanmış qurumdur. Bunu yadda saxlamaq lazımdır ki, Səid Nursi Nur tələbələrini üç yerə bölür: **Tələbə-yoldaş-simpatizan** (pərəstişkar). Tələbə, əsl həqiqətdə

işin içində olandır. Simpatizan təşkilat işlərində aktiv şəkildə iştirak etməsə də, onun fəaliyyətlərinə müsbət nəzərlərlə baxır. Camaatdan ayrılan insanların üçüncü qrupda olması təşkilat üçün yetərlidir. Çünki hər hansı bir xalq etirazı baş verdiyi zaman bu üçüncü qrup önəmli rol oynayacaq.

1990-cı illərə qədər camaatın əsas fəaliyyət mərkəzi "dershane (hazırlıq kursları) və ya işıq evləri" dedikləri şagirdlərin və onların başçılarının qaldığı evlər idi. Camaatın bacarıqlı əməkdaşları burada yetişdirlirdi. Hər dərsxana (kurs) və ya ev bir bölgəyə bağlıdır. Hər ev həcminə görə 5-6 adamdan ibarət olur və evlərə kimlərin yerləşdiriləcəyi bölgə imamları tərəfindən müəyyən olunur. Eyni zamanda hər evin bölgə imamları tərəfındən təyin edilmiş bir imamı vardır. Ev imamları əsasən yaşca daha böyük olan insanlardır.

**Evdə həyat qısa olaraq bu şəkildədir:**

**a)** Evin birinci vəzifəsi adam qazanmaq və yeni cəlb olunan insanlara camaat təlimini aşılamaqdır. Bu funksiyanı uğurla yerinə yetirən evlərin kadrları digər yerlərə göndərilir.

**b)** İkinci vəzifə evdə qalanları **təriqət** təlimləri ilə davamlı yetişdirməkdir.

**c)** Üçüncü vəzifə istifadə edilən bir yer təmin etməkdir.

Eyni zamanda hər evə xüsusi bir missiya tapşırılıb. Ev sakinlərinin xidmətdən kənarda küçədə dolaşmaları qadağandır. Çünki küçə günahla doludur.

**<u>6-Hədəfdə olan təşkilat və orqanlar:</u>**

Fəthullah Gülənə görə ordu, mülki işlər, hüquq, təhsil sahəsi təşkilatlanılması gərəkli olan qurumlardır. Yüksək vəzifələrdəki bürokratlarla yaxın əlaqələr qurmaq, daxili işlər və polis orqanlarında təşkilatlanmaq cəmiyətin məqsədləri sırasına daxildir. Hətta idman dünyasını belə boş buraxmayan camaat xüsusilə Qalatasaray futbol komandasındakı tərəfdarları ilə seçilir. Bu kiçik örnək camaatın siyasi tərəfdarlarının çoxluğu, məqsədlərinin genişliyi və hədəflərinin dərinliyini göstərməktədir.

“Boğaziçi”, Orta Doğu Texniki Universiteti, “Bilkent” kimi sekulyar həyat tərzinin kök saldığı universitetlərdə təriqət fakultə səviyyəsində güclü şəkildə təşkilatlana bilməyib. Ancaq bu universitetlərdə asistent səviyyəsində və ya doktorluğa hazırlaşan camaat mənsubları mövcuddur. Universitetlərdə bu gün aşağı vəzifəli kadrları ələ keçirmək uğurunda savaşırlar. Çünki bu günün asistenti sabahın doktoru, professoru olacaq.

YÖK ve MEB-in (Təhsil Nazirliyi) 5-6 il əvvəl başlatdığı layihə əsasında yeni universitetlərin kadr ehtiyacını ödəmək üçün xarici ölkələrə minlərlə tələbə göndərildi. Bu tələbələrin hər biri üçün dövlət ildə 40 min Amerika dolları ödəyir. Hər fürsəti dəyərləndirməkdə usta olan nur camaatı bu fürsəti də çox yaxşı yaxaladı. Belə ki, xaricə göndərilən bu tələbələrin çoxu dinçi təşkilata

mənsubdurlar. İndiki anda dövlətin pulu ilə oxuyan bu gənclər gələcəkdə dəvlət universitetlərində mövqe əldə edəcək. Hazırda Amerika, İngiltərə, Fransa başda olmaqla bir çox ölkələrdə oxuyan yüzlərlə təriqət üzvü var. Sekulyar qrupdan olan insanlar bu işə çox rəğbət bəsləmirlər. Çünki dövlətə məcburi xidmət kimi bir şərti var. Halbuki bu, təşkilat üzvləri üçün ekstra faydadır. Çünki gələcəkdə universitetdəki iş yerlərini təmin etmiş olurlar. Özəl universitetlər arasında rektoru sekulyar bir insan olmasına baxmayaraq, Fatih Universiteti onlarındır. Akademik çevrədə kadrolaşmanın əhəmiyyətini qiymətləndirirlər və bu səbəbdən də doktorluq müdafiə edə biləcək bacarıqda olan tələbələri buna təşviq edirlər.

**7-Gəlir qaynaqları və sərmayə dövriyyələri:**

Nur evlərinin içindəki bütün əşyalar təşkilatın əsnaf tərəfdarları tərəfindən təmin edilir. Tələbələrin özləri də ehtiyaclarını təmin edirlər. Maddi durumu pis olanlara təşkilat tərəfindən yardım edilir. Bu yardımlar camaatın böyüməsində önemli bir faktordur. Mən Gültəpədəki yataqxanada qalarkən onlarla tələbədən kirayə haqqı alınmadığını bilirdim. Əsnaf arasında təşkilatlanma 1990-cı illərdə daha da artdı. Hazırki anda böyük bir maliyyə gücləri var.

İlk vaxtlarda əsnaf pərakəndə halda idi və onların əsas funksiyası camaata pul yardımı etmək, ictimai dəstəyi saxlamaq idi. Fətullahçılar pul toplama işinə “Himmet” deyirlər. Ən böyük miqdarda yardım Ramazan ayında toplanır. Əsnaf böyük bir salonda toplanır, bu zaman təriqətin önəmli, yüksək vəzifəli əməkdaşı gələrək

hissiyyatlı bir moizə edir və bundan sonra toplaşanlar növbəti Ramazan ayına qədər verilmək üzrə pul və əmlak boyun olurlar. Hazırda belə tədbirləri hətta Çırağan Sarayında da keçirirlər.

Təriqətin yeni strategiyasına əsasən əsnafın mütəşəkkil olaraq bir araya gəlməsi üçün 1996-cı ildə İstanbulda İŞHAD (İşadamları Dayanışma Derneyi) yaradıldı. Bu dərnək əsnafın maarifləndirilməsi, bir araya gəlməsi üçün toplantılar, yeməklər, resepsiyonlar (qəbullar) verir. Türkdilli respublikalardakı yüksək iş potensialından Türkiyə sərmayədarları içərisində ən birinci Fəthullahçılar istifadə etdilər. Bu ölkələrə yatırılan sərmayənin ən böyük payı onlarındır. "Anadolu Qaplanları" deyilən yerli sərmayədarların önəmli bir qismi Fəthullahçıları dəstəkləyirlər. Aralarında güclü iş ortaqlığı və informasiya mübadiləsi mövcuddur. Bu əməkdaşlıq xarici ticarətdə də özünü göstərir.

**8-İbadət:**

Evlərdə namazlardan sonra davamlı olaraq ya Nur Risalələri, Fəthullah Gülənin kitabları oxunur, ya da kasetler dinlənir və ya izlənir. Şam və xiftən namazları arası bunun için ən uyğun vaxtlardır.

**9-Şagirdlərin düşüncə və təklifləri:**

Fəthullah Gülənin camaata təqdim olunan obrazı və onun müsəlmanlar daxil olmaqla bütün insanlığı qaranlıqdan qurtaracaq "Mehdi" rolu məncə üzərində dayanılmalı bir nöqtədir və təşkilatın "partlayıcı həlqəsi" buradadır. Bu

“həlqə” dartılsa baş verəcək “partlayış”dan Gülən camaatı böyük bir zərbə alar. Əgər hər hansı bir şəkildə Fəthullah Gülənin Amerikadan dəstək aldığı sübut olunsa, təriqət daxilində parçalanma yaranacağına inanıram. Bu səbəbdən onlar informasiyanın həyati əhəmiyyətini anlayırlar. Dəqiq məlumatım olmasa da dövlətin istihbarat (məxfi təhlükəsizlik) qurumlarına öz adamlarını yerləşdirməyə çalışdıqlarına inanıram. Siyasətlə olan əlaqələri yetərincə güclənmədikcə Türkiyədəki güc mərkəzləri ilə birbaşa əlaqə qurmaqdan, siyasi proseslərə qatılmaqdan və açıq şəkildə hansısa partiyanı dəstəkləməkdən yayınırlar. Siyasilər radikal İslamın alternativi olaraq bir ılımlı (yumşaq) İslam təşkilatı olaraq qəbul edilən Fəthullahçıları həm sahib olduqları elektorat, həm də siyasi və maliyyə güclərinə görə himayə etməkdədirlər.

Təriqətin görünən məqsədi sadəcə bir maarifçilik hərəkatı və üç yüz ildir dinsizlik boyunduruğu altında yaşamış ölkəni qurtarmaq olsa da, orduya girmək üçün çalışmaları və digər dilə gətirmədikləri, amma qəbul edə bilmədikləri dünyəvilik kimi mövzularda niyyətlərinin o qədər bəsit və saf olmadığını göstərir.  Çox təəssüf ki, ictimai təşkilatlanmanın sağlam şəkildə gerçəkləşmədiyi Türkiyədə ordu olmasaydı bu gün xəyallarında qurduqları İslam Dövlətini təsis edərdilər. Bu gün Türkiyədə Fəthullahçılarla ordu arasında gizli bir şahmat oynanılır. Təriqətin orduya münasibəti bəllidir. Ordunu hər fürsətdə təriflədikləri halda böyüməlċrinə yeganə əngəlin də ordu olduğunu bilirlər. Kəşfiyyat qurumlarının bunları öyrənməsi və çox ciddi dəyərləndirəsi lazımdır.

Təriqətin parçalanmasına səbəb olacaq digər önəmli bir ünsür gəncliyini, universitet illərini camaatla birgə keçirmiş, ancaq daha sonra onlardan ayrılmış çoxlu sayda insanların  təşkilata qarşı neqativ baxışlara sahib olmağa başlamasıdır. Çünki bu insanlar 10 il sonra təşkilatın dəyişməyə başladığının şahidi olmuş, keçmişdə onlara söylənilən sözlərin bu gün geçərsiz olduğunu görmüşlər. Yaxın keçmişdə Rifah Partiyası və tərəfdarlarının aqibətindən dərs alaraq radikal davranışların hansı zərəri olduğunu gördükləri üçün Fəthullah Gülənin tez-tez təkrarladığı tolerantlıq fəlsəfəsini və siyasətini təşkilatın emblemi olaraq təqdim edirlər. Araşdırma və analiz etməyən Türk xalqı və kiçik burjaziyası bu əqidəyə inanır və tələsik verilmiş qərarlarla "İlımlı İslam" (yumşaq islam) olaraq gördükləri təşkilatı destəkləyirlər. Amma bu təşkilatın digər dinçi qurumlardan daha ağıllı olduğunu, buna görə də böyük gücə sahib olana qədər tolerantlıq maskasını çıxarmayacağını bilmirlər.

Eyni zamanda Fəthullah Gülənin ölümü təşkilatda ciddi bir boşluğun yaranmasına səbəb olacaq. Çünki təriqətin hər bir üzvü mənəvi cəhətdən öz liderinə bağlıdır. Amma sahib olduqları maddi güc təşkilatı saxlamağa yetərlidir. Onlara qarşı ordu və ictimai təşkilatların kampaniya aparmasına ehtiyac var. Bu təşkilatı demokratik cəmiyyət vasitəsilə əritmək mümkündür. Güləndən sonra camaat parçalana və siyasi  güc olma imkanlarını itirə bilər.

Bu təşkilatın təbliğatının qarşısı ancaq ağıllı siyasətlə alına bilər. Birinci siyasət, təşkilatı Türkiyə cəmiyyətində nəzarət altına almaqdır. Fəthullah Gülən və tərərfdarları

sistemli bir şəkildə təşkilatı  və hədəflərini ictimai müzakirələrdan qorumağa, nə istədiklərini gizlətməyə çalışırlar. Dövlət televizyalarında və dünyəvi mediada onlara qarşı proqramlar hazırlanmalıdır. Sadəcə şagirdlərlə işləyərkən istifadə etdikləri gizli metodların Türk valideynlərnin təpki və narazılığına səbəb olacağına inanıram. Bundan başqa güclü kəşfiyyat şəbəkəsi qurmaqla təşkilatın bütün fəaliyyətini izləmək lazımdır. Təşkilat daxilində hesablaşmalar və gəlir davaları mətbuata ötürülə bilər. Fəthullah Gülənin hər kaseti o qədər də məsum deyildir. Bu kasetlər televiziyalarda yayınlana bilər. Xüsusən də 1980-ci ildən əvvəlki çıxışları çox radikaldir.

## KİTABLARINA GÖRƏ FƏTULLAHÇILIQ:

### 1-Cihad:

Fəthullah Gülənin 1998-ci ildə çap olunmuiş "İ'la-yı Kelimetullah və ya Cihad" adlı kitabında cihad mövzusunda belə yazılıb: Cihad, Allah yolunda döyüşün adıdır. Bu gün də cihad deyilincə ağıla gələn məna budur... Cihad bir baxımdan insanın yaradılmasının qayəsidir və yer üzündə ondan daha önəmli bir vəzifə yoxdur. (Səhifə: 13).

Cihad, qiyamətə qədər davam edəcəkdir. Biz nə qədər inancla davransaq da mütləq küfründə israr edən kafirlər tapılacaq. Onların mövcudluğu bizim cihadımızın davam etməsi deməkdir. Biz hər kəsə rəbbimizi anlatmağa borcluyuq və dünyaya qarşı həm maddi və həm də mənəvi

cihad etməliyik. Əks halda insan kimi yaşamaq haqq və imkanımızı itirə bilərik. (Səhifə: 34).

**Cihad, bir möminin uğrunda canını fəda edə biləcəyi ən dadlı bir məfkurə, ən yüksək bir idealdır. Çünki mömin öz təri içində boğulma və öz qanı ilə dəstamaz almaq kimi bir zövqü ancaq cihadla əldə edə bilər. (Səhifə : 45)**

Cihad bir "farz-ı kifayedir" (bir qism üçün yetərlidir), ancaq bu vəzifə günümüzdə olduğu kimi sistemli olaraq edilməzsə o zaman "farz-ı ayn" (hamı üçün vacib) olur və hər fərd bu vəzifəyə cavabdehdir. (Səhifə: 49).

Cihaddan geri qalmaq ciddi bir günahdır. Cihad bir xeyir qapısıdır. O qapıdan girən iki xeyirdən birinə mütləq qovuşacaq. Bəli, ya şəhid olub əbədi bir hayat, ya da qazi olub həm dünya, həm də axirət nemətlərinə qovuşacaqdır. (Səhifə: 57-58).

Cihad elə bir vəzifə və mükəlləfiyətdir ki, camaatın mütləq bu işə yardım göstərməsi və savaşması lazımdı.

Cihadı gözəlləşdirən onun səbəbləridir. Məsələn, "İ'la-yı Kelimetullah"a (Allah kəlamının yayılması) vəsilə olması, möminin yer üzündə hakim və müsəlmanlara təcavüz edənlərə qarşı çəkindirici və qorxuducu olması, gücsüz və məzlum insanların müdafiəçisi olduğu üçün gözəldir. Bu əsas üzrə demək olar ki, cihad "İ'la-yı Kelimetullah" (Allah kəlamını yaymaq) şərtinə bağlıdır. Mömin cihad məqsədilə ata, təyyarəyə minəcək, bütün silahlardan istifadə edəcək və bütün bunları Allahın adını yüksəltmək

məqsədilə edəcəkdir. Möminə buyrulan cihad budur. (Səhifə: 51).

Bir insan şəxsən cihada girmirsə, ancaq vuruşanlara dəstək verir, qurduğu müəssisələri ilə mücahidlərə kömək edirsə vuruşmuş kimidir. (Səhifə: 68.)

Deməli, acizlik, fəqirlik, yaşlılıq və qadın olmaq kimi məziyyətlər insanları cihad kimi fəzilətli əməlin savabından məhrum etmir. Cənabi Haqq niyyətlərinə görə onlara da cihad edənlərin savabını verəcək. (Səhifə: 69).

Cihada hər an hazır olmalıyıq. Hər bir məsələnin həll edilməsi üçün tək bir çarə vardır. Bu da maddi və mənəvi cihaddır. Qısası, cihad bizim daxili və xarici rahatlıq və dincliyimizin yeganə qarantıdır. Cihadın olmadığı bir dünyada bizim rahatılığımız olmayacaq. (Səhifə: 105).

**"Asrın getirdiği tereddütler 4" adlı kitabda cihadla bağlı yazdıqları:**

Bəli, boyunduruğun yerə qoyulduğu bu dönəmdə dini İslamı bərqərar etmək üçün cihad etmiriksə, küfrün həmləsi altında əzildiyimiz anda haqqı batildən ayırmaq üçün yuxularımız qaçmır və ciddi bir iztirab duymuruqsa qınanacaq biri varsa o da bizik. (Səhifə: 97).

**"Asrın Getirdiği Tereddütler 3" adlı kitabda isə bunlar yazılıb:**

Cihad... bu kəlimə İslamla birlikdə, Allah yolunda savaşmanın adıdır. Bu gün cihad deyildikdə ağıla gələn ilk

məna budur. (Səhifə: 186). F.Gülənin kitablarının əksəriyyətində insanın özünü fəda edə biləcəyi ən böyük məfkurə və ən yüksək idealın cihad olduğu anladılır. O həmçinin “bunun belə olduğuna yəqinimiz var” deyərək müridlərində qeybi bilən bir insan olduğu görüntüsünü yaradır.

**2-Təbliğ:**

**Fətullah Gülən 1998-ci ildə çap olunmuş “İRŞAD EKSENİ” adlı kitabında təbliğ mövzusunda bunları yazır.**

Bu önəmli vəzifə (təbliğ) yerinə yetirilmədiyi zaman toplumun məruz qalacağı müsibətlər haqda peyğəmbərimiz belə söyləmişdi; “Halımız necə olacaq? O gün qadınların baş qaldırdığı, dəstə-dəstə yayılaraq küçələrə töküldüyü, hər tərəfdə küfrün tüğyan etdiyi və həqiqətin tərk edildiyi gün... Bütün pislikləri yaxşı və yaxşılıqları pis gördüyümüz gün halımız necə olacaq?” Hədislər hər şeyin tərsinə dönüb, dəyərlərin alt-üst olacağı, yaxşıların pis, pislərin yaxşı görünəcəyini, zinaya adi baxılacağını, terror və anarxiyaya rəvac veriləcəyini, iman və Quranın aşağılanacağını, Allaha inananların zəif və gücsüz hala gətiriləcəyini, bir çox pisliklərin dövlətlər tərəfindən qanunlar vasitəsilə qorunacağını, dinə aid həqiqətlərin gerilik nümunəsi hesab ediləcəyinə işarə edir. Dövrün insanı bunu 10 misli yaşadı və zənn edirəm ki, bir müddət də yaşayacaq. (Səhifə: 9-10).

Bəli, zaman olur insan təbliğ vəzifəsini öz ailəsi və övladları üçün əli və dili ilə yerinə yetirər. Onda həm əl,

həm də dil danışar. Fəqət bəzən əlin iş görə bilmədiyi yerlərdə bu işin dillə edilməsi lazımdır. Yaxın qohuma qarşı istifadə ediləcək vasitə budur. (Səhifə : 34).

Əvvəla, təbliğ və irşad deyə biləcəyimiz bu cür əməllər hər kəsin Allah üçün etməsi gərəkli olan bir vəzifədir. Belə olduğu təqdirdə inanan hər bir fərd özünü bu əmələ mükəlləf bilməli, bu işə namaza tələsdiyi kimi tələsməlidir. Xüsusilə, Əmr be məruf və Nəhy əz münkərin yaddan çıxdığı, ortalığı pisliklərin işğal etdiyi zamanda bu vəzifəyə daha çox diqqət yetirilməlidir. Çünki bu əməl yerinə yetirilmədiyi təqdirdə nə namazdan, nə həccdən, nə də zəkatdan danışmaq mümkündür. Şəxsən mən günümüzdə bu vəzifədən daha ali və incə bir iş tanımıram. Eyni zamanda həyatını bu vəzifəni həyata keçirməklə yaşayanların dünya və axirətinin yaxşı olacağı qənaətindəyəm. (Səhifə: 39).

Bəli, əvvəldə də ifadə etməyə çalışdığımız kimi, bir camaat və ya toplumun ən fəzilətli insanları beləlıəridir. Bu insanlar mənəvi yönləri ilə Allaha yaxın ola bilərlər. Ancaq bu toplum içərisində Əmr be məruf, Nəhy əz münkər edilmir, bu məqsədlə müəssisələr qurulub, bu vəzifə sistemli şəkildə həyata keçirilmirsə, Allah o cəmiyyətin altını üstünə çevirər və o camaatı, o milləti əsla dirçəltməz. (Səhifə: 68).

Fətullah Gülən bu kitabında yetişdirdiyi kadrlarına bu xüsusiyyətləri təlqin edir. (Səhifə: 206).

## Təbliğ və irşad vəzifələrin ən müqəddəsidir

Təbliğ normal zamanlarda "fərzi kifayə" (müəyyən bir qism üçün) olsa da, günümüzdə bu mövzuya diqqət azaldığı üçün "farz-ı ayn" (hamı üçün vəzifə) sayıla bilər. Onun yaddan çıxarılması caiz deyildir. Bu vəzifəni yerinə yetirməyərək ölən bir kimsənin nifaq içində ölmüş olmasından əndişə edilməlidir. **İçərisində bu müqəddəs vəzifənin həyata keçirilmədiyi bir toplumu Allahın həlak etməsi mümkündür. Bu müqəddəs vəzifə fərd, millət və dövlət səviyyəsində həyata keçirilməlidir. Müsəlman dünya nizamının ana ünsürüdür, onun olmadığı dünyada nizam olmadığı kimi, onun olduğu yerdə də anarxiya və terror ola bilməz. Bu isə müsəlmanın təbliğ məzifəsini haqqı ilə yerinə yetirib-yetirməməsindən asılıdır. Bizə təbliğ adamları lazımdır. Bu dini ayaqda tutacaq və onu dünyanın dörd tərəfinə yayacaq insanlar da onlardır. Təbliğatçı təbliğdə çox israrlı olmalıdır. Təbliğ adamı həvari xarakterində olmalıdır.**

## 3-Starategtya və taktika:

Fətullah Gülən strategiya və taktika mövzusunda bunları yazmışdır.

**"Fasıldan Fasıla 1" adlı kitabda;**

Bacarıqlı bir təbliğatçı söyləyəcəyi mətləbləri həmən deməz. Deyilməsi lazım olmayan bir sözü vaxtından əvvəl söyləyərsə şərait əleyhinə işləyə bilər. (Səhifə :119).

Bu gün dövrün şərti və xidmətin məqsədi xatirinə bir yanağına vurana o biri yanağını çevir, cavabını vermə. Əgər küçəyə çıxma deyilirsə, bu, ruhi vəziyyətlə əlaqədardır. İrəlidə inşallah “Muhammed-i Zemin” tam yerini alacaq və “M**uhammed-i renk bütün renklere hakim olacaktır”.** (Səhifə: 222).

**"Fasıldan Fasıla 2" kitabında yazılanlar;**

Bəli, Allah rəsulunun ətrafında hər zaman bu cür fədakarlar oldu, amma o özü də heç bir zaman qüsur etmədi. Planlaşdırdığı işin nə ilə nəticələnəcəyini hər kəsdən yaxşı dəyərləndirdiyi üçün strategtyasını həmişə təmkin və tədbirlə hazırladı. Əlbəttə, qayda gözlənilmədiyində məğlubiyyət qaçılmaz olur, belə vəziyyətdə qəhrəmanlıq nümayiş etdirməyə çalışmaq sadəcə xəyanətdir. (Səhifə: 140-141).

**"Fasıldan Fasıla 3" kitabında yazılanlar;**

Türkiyədə İslamın tənəzzülünün qarşısının alınması üçün haqq meydanına atılmış xidmətçilərin diqqətli olması lazımdır... Bu, eyni zamanda hədəfə çatmaqda da önəmli vasitədir. (Səhifə: 76).

**“Asrın Getirdiği Tereddütler 4” kitabında yazılanlar;**

İndi bu mənada söylənilən söz, atılan addım kimə qarşıdırsa, hərəkətimiz onlar tərəfindən sezilməməli və hiss edilməməlidir ki, həyata keçirdiyimiz işdə az itki ilə üzləşək. (Səhifə: 207).

**“Ölçü ve ya Yoldaki İşıklar 3” kitabında yazılanlar;**

Sizin kimi düşünməyən və fərqli bir dünya görüşünə sahib olan, lakin çox faydalı və səmimi insanları fərqli düşüncəsinə görə, tələskənliklə qaçırmaq olmaz. Hətta məlumat və fikirlərindən istifadə yolları tapılaraq onlarla dialoqa girilməlidir. Yoxsa bizim kimi düşünmür deyə, uzaqlaşdırılan bu narazılar sonradan daha güclü şəkildə qarşınıza çıxıb sizi sarsıda bilərlər. Bəşər tarixi boyunca narazıların müsbət əməlləri qeydə alınmasa da, yıxdıqları dövlətlər sayılmayacaq qədər çoxdur. (Səhifə: 40).

**“Prizma 1” adlı kitabda yazılanlar;**

**Yetərli qüvvəniz olmadığında texnika və taktikaya müraciət olunmalıdır. Əks təqdirdə qarşısıalınmaz qüvvələrlə savaşa atılmaq ümumi mübarizəyə ən böyük xəyanətdir.** (Səhifə: 86)

Daxili və xarici faktorları nəzərə alaraq ayrılan nöqtələrimizin müzakirə olunmasına, bilgilərimizdən ağıl və məntiqlə istifadə etməyə ehtiyacımız vardır. Maddi, mənəvi, dünya və axirət səadətimizin təməl daşı olan vəhdətimiz üçün heç olmasa Anqlo-sakson və Qall ittifaqı biçimində birliklərə çox ehtiyacımız var. Düşmənimizi məşğul edən, düşündürən, göz açmağa qoymayacaq bacarığımız olmasa da, heç olmasa onların oyununa düşməmək və özümüzü bu oyunların qurbanı olmaqdan qorumağı bacarmalıyıq. Əslində buna məcburuq. (Səhifə: 6-7).

Hər şeydən əvvəl yeni ortaya çıxan fərqli düşüncələrin normal qəbul edilməsi və ya ən azı belə bir görüntü yaradılması lazımdır. Qaldı ki, heç də kiçik olmayan bölücü fəaliyyətlər var və bunların mövcudluğunun qəbul etmək realizmin ifadəsidir.

**a)** Uzun zaman din təbliği sahəsinin boş qalması və sonradan bu işin ayrı-ayrı fərd və icmalar tərəfindən həyata keçirilməsi, eyni zamanda bu fərd və cəmiyyətlərin hamısına sözünü keçirəcək liderin tapılmaması onların fərqli yol tutmalarına səbəb olmuşdur. Bunların bir qismi kəndlərdə Quran kursu açmaqla, digər qismi cəlbedici dini kitabları oxumaqla, bir qismi isə intellektual səviyyədə insan yetişdirməklə dinə xidmət yolunu tutublar. Amma onların hamısı pərakəndədirlər.

**b)** Bu qrupların hər birində öz rəhbər və öncüllərinə müasirləri nəzərilə baxmaları anlaşılan olsa da, digər tərəfdən də çətinlik yaradır.

**c)** Müasir dövrdə Mehdilik nəzəriyyəsi barəsində eyni sözləri söyləmək olar. Qorxunc axırzaman fitnəsi qarşısında Mehdilik əqidəsi fərd və cəmiyyət içərisində xilaskar ünvandır. Əlbəttə, etiqadi bağların zəiflədiyi, əməllərin tərk edildiyi bir dönəmdə bir şəxs lazımdır ki, bizə görə çətin olan işlərin həll olunması üçün böyük bir islahatı bir həmlədə həyata keçirə bilsin. (Səhifə: 8).

**“Fasıldan Fasıla 1” adlı kitabda yer alan mətnlər;**

Camaatlaşma təbii və normaldır. Anormal olan camaatlaşmanı təfriqələrə səbəb etməkdir. Hər hansı bir

camaatı meydana gətirən fərdlər arasında əlaqələr nə dərəcədə vacibdirsə, camaatlar arasında da eyni əlaqələrə ehtiyac var. Bu əlaqələr olmadıqda cəmiyyətlər bölünür, parçalanır və son nəticədə əriyib yox olur. Bu isə İslam üçün böyük zərərdir. Bundan xilas olmağın yeganə çarəsi bütünləşmək, birlik və bərabərliyi qorumaqdır. Bu mövzuda utopik çıxışlara da ehtiyac yoxdur... Ancaq bu xüsusda bəzi prinsiplərin xatırlanması xeyirlidir. Əvvəla, heç bir camaat digərinin əleyhinə olmamalıdır. İkincisi, camaat üzvləri digər camaatların böyüklərinə qarşı sayğılı davranmalı və daim onları ədəblə yad etməlidir. Üçüncüsü, bütün camaatlar biri-birlərinin həm qəmli, həm də şad günlərində onlara ortaq olmalıdırlar. (Səhifə: 170-172).

İslam camaatlarından birinə daxil olan hər bir fərd mənəvi bir şirkətin üzvü deməkdir. (Səhifə: 174). İkinci dünya müharibəsində Hitler Rusiyada arxadan gələn tanklar keçə bilsin deyə öndə gedənlərin bir qismini bataqlıqlarda batırtığı kimi, eyni şəkildə bir nəsil də arxadan gələn nəsillərin qurtulması üçün özünü fəda etməlidir. Hazırkı anda Türkiyədə yaşanan dövrü bu cür xarakterizə etmək olar. (Səhifə:110).

Heç şübhəniz olmasın ki, zaman müsəlmanları birləşdirməkdədir. Hazırkı anda bu istiqamətdə keyfiyyət və kəmiyyət baxımından bir irəliləyişə ümidimiz yoxdursa da, bizim indiki durumumuz doğumu yaxınlaşmış, ancaq hələ ana bətnində olan körpənin vəziyyəti ilə müqayisə oluna bilər. Bəli, millətimiz bu gün olmasa da, sabah mütləq dünya idarəçiliyini layiq olmayan insanların əlindən alacaq. (Səhifə: 112).

**1996-cı ildə İzmirdə çap olunmuş "Fasıldan Fasıla 1" adlı kitabıda da bu mövzuya toxunulub:**

İslama xidmət edən hər kəs bir bir şəxsiyyətdir. Dolayısı ilə bu xidmətlərdə intizam çox önəmlidir. Zahirən əsgər olmasaq da, ruhən əsgərik və belə də olmalıyıq. Hətta buna məcburuq. Bu səbəbdən də İslami xidmətlərdə vəzifəsini dərk etməyən və öz işinə ciddi yanaşmayan hər kəs mütləq bunun cəzasını çəkəcək. (Səhifə: 125).

Hazırkı anda dünyada dini sistemlər baxımından bir boşluq var. Bəşər nizamının hər sahədə tükənməsi sistem axtarışını bir qədər də sürətləndirib. Ancaq qarşı cəbhənin insanları da boş dayanmayıb. Onlar da yaranmış boşluğu başqa əqidələrlə doldurmağa çalışırlar. Əvvəllər də belə olmuşdu. Materializm və Marksizmin yararsızlığını görən Qərb alternativi yenə də öz içindən çıxarmağa çalışdı. Və nəticədə materializm boşluğunu Berqsonun ruhçuluğu ilə doldurmağa və gerçəyə olan ehtiyacı yayındırmağa cəhd etdilər.

Berqson bir yəhudidir. Allaha inanc əvəzinə vicdanı ortaya qoyan, cənnəti vicdan rahatlığı ilə əvəz etməyə çalışan bir yəhudi. Maddəçilik bir nəzəriyyə olaraq çökməyə başladıqda, qərblilər Berqsonun anlayışını insanlığa bir din kimi təqdim etdilər. Əgər biz indi tez bir zamanda ümumilikdə insanlığa aid bir boşluğu inandığımız din ilə doldurmasaq eyni oyun yenə də təkrarlanacaq və insanlıq əyri yollara yönəldiləcək. Buna görə də daha sürətli çalışmamız lazımdır. (Səhifə:168).

**“Fasıldan Fasıla 2” kitabında yazılanlar;**

Plan və proqramlar təsəvvürlərdən başlanır. Sonra beyinə yerləşərək düşüncə və fikir olurlar. Daha sonra bu düşüncələrin həyata keçməsi üçün mövcud durumun yararlı olması da şərtdir. Məsələlər birinci mərhələdə düşüncə və fikir olaraq hazırlanır, daha sonra isə bütün bunların həyata keçirilməsi üsulları müəyyən olunur. Biz buna tam olaraq plan və proqram deyirik. (Səhifə: 118-119).

**“Fasıldan Fasıla 2” adlı kitabda mövzu ilə bağlı bunlar da qeyd olunur;**

Birisi irşadda müvəffəq olduğu halda, cəbhədə iradəsi yoxdur. İrşaddakı bacarığına baxıb cəbhədə də vəzifələndirsəniz böyük bir fiaskoya uğraya bilərsiniz. Allah yolunda xidmətin salamatlığı üçün insanlar yaxşı tanınmalı və sonra onlara iş tapşırılmalıdır. (Səhifə: 140).

Bu gün taleyin neməti olaraq çoxlu sayda fədakar din xidmətçiləri vardır. Ancaq onların bir qismi “Şöhrət riyanın eynidir, qəlbi öldürən zəhərli bir bəladır” düşüncəsini əsas tutaraq, kənara çəkilməyi düşünürlər. Bu məsələ barəsində düşünmək lazımdır. Bəzən din xidmətçisi özünü zəif bilib bir kənara çəkilərsə fikrimcə savab deyil, günah qazanır. Çünki görüləsi hələ çox işlər var. Aşağıdan gələcək kadr bu işləri yerinə yetirmək, özü də yaxşı şəkildə yerinə yetirmək bacarığında deyil.

...Bu baxımdan bizim bütün düşüncə və davranışlarımızda dinə xidmət gəmisinin hərkəti hədəfə alınmalı, axirəti

qazanmaq üçün göndrildiyimiz bu dünya qışlağında, yaxşı xidmət etməli, hər hərəkətimizdə Allah rizasını qarşımıza məqsəd qoymalı və hətta cənnətə getmək kimi – hər kəsin bunun arzusu ilə qovrulur – bu hədəflərə çatmağa gecikmək xatirinə də olsa bundan indilik vaz keçilməlidir. (Səhifə: 345).

**<u>4 – Fətullah Gülən Səid Nursinin davamıdır:</u>**

Fətullah Gülən hər fürsətdə Bədiüzzaman dedikləri Səid Nursinin müridi olduğunu vurğulayır. Qurduğu təşkilatın da Nurçuluq təlimi əsasında formalaşdığını açıqlayır. Səid Nursini "əsrin əzabkeşi, dövrün böyüyü, mürşidi-kamil, ruhların həkimi" kimi sözlərlə öyür.

**"Fasıldan Fasıla 2" adlı kitabında Səid Nursi haqqında yazdıqları;**

Bədüzzaman dünyanın harasında olursa olsun, yetişdirdiyi insan dünya ilə oynaya bilər. Təbii ki, bu işdə seçilən zaman həyata keçiriləcək işin həcminə görə olmalıdır. Həzrəti İsa yetişdirdiyi 11 insanla dünyanı dəyişdirdi, imperatorluqları diz çökdürdü. Bu iş onun özündən bir neçə ay sonra müəyyən vaxt ərzində baş verdi. Əfəndimiz isə bir qadın, bir kölə və bir cavaela başlatdığı işlə qısa zamanda yeri yerindən oynatdı. Başlayanda heç kim belə bir nəticəni ehtimal etmirdi. Həddimi aşaraq mən də eyni şeyi deyirəm: 5-10 insanla cahanı fəth etməyimiz mümkündür. Qaldı ki, o böyük zatın (Bədüzzamanın) açdığı cığırın mahiyyəti ortadadır və indiyə qədər olanlar gələcəkdə olacaqların başlanğıcı mahiyyətindədir. Bütün bunları hamımız açıq şəkildə görə bilirik. (Səhifə:198).

O, bütün ömrünü kitab və sünnətin kölgəsində, təcrübə və məntiqin qanadları altında, dərin bir eşq və həyacanla birlikdə bir mühakimə insanı olaraq yaşadı. Əgər Bədüzzaman ölkənin dörd bir yanına öz çağırışlarını göndərdiyi zaman onu anlayacaq bir neçə yüz insan aydın düşüncə ilə ona dəstək olsaydı ehtimal ki, bu gün zəngin ölkələrdən daha zəngin, ən modern millətlərdən daha modern və sonradan qarşımıza çıxacaq əngəlləri aşa biləcək gücdə idik və əsrin gətirdiyi bir çox problemlərlə qarşılaşmazdıq. Amma hər şeyə rəğmn yenə də ümidliyik. (Səhifə: 209).

**"Fasıldan Fasıla 1" adlı kitabda Səid Nursi haqqında yazdıqları;**

Əgər onun "Risalələr"ini olduğu kimi anlasaydıq, mədrəsə və təkkələrdən gözlənilən nəticələri alardıq. Bədüzzamanın ilahiyyat ağırlıqlı, ancaq humanitar elmlərin də tədris olunduğu Şərq Universiteti düşüncəsi o dönəm üçün orijinal bir variant idi. Bu Universitetdə ərəb, fars və türk dillərinin tədrisi vacib, kürd dili isə sərbəst olacaqdı**.** (Səhifə 206).

## <u>5- TƏŞKİLATLANMADA ƏSAS PERESPEKTİV:</u>

**"Asrın Getirdiği Tereddütler 3" adlı kitabda yazılanlar;**

**Birincisi, q**arşındakı insanın ruhuna girməyin yolları araşdırılmalıdır. Bu, insani yanaşmanın üsuludur. Hədiyyələşmə və yaxud onun üzləşdiyi bir sıxıntını aradan qaldırmaq kimi... Həmsöhbətinin könlünə girəcək müvafiq

yollar müəyyən olunmalı və tez bir zamanda bu iş həyata keçirilməlidir. Yəni fikirlərimizi təbliğ etmək istədiyimiz şəxs əvvəlcə bizim dəstəyimizi qəbul etməlidir. Bu, onun bizim söyləyəcəyimiz düşüncələri qəbul etməsində mühüm faktordur. (Fərdlərlə iş, bir adama bir nəfər cəlb etmə, adamdan adama təbliğat metodu).

**İkincisi**, qarşımızdakı adamın inanc və mədəni səviyyəsini yaxşı bilməyimiz lazımdır. Məsələn, açıq şəkildə oxuyacağınız Quran da olsa, onu ürküdüb qaçıracaq və bir daha bizə yaxınlaşmayacaqsa, o zaman hətta Quran da oxunmamalıdır...Bəzən əvvəlcədən araşdırma aparılmıdan hətta təbliğ naminə söylənilən sözlər elə bir reaksiyaya səbəb ola bilər ki, bundan sonra nəyisə anlatmağımız fayda verməz. (Başlanğıcda məqsəd gizlənilməli, təqiyyə olunmalıdır.)

**Üçüncüsü**, həmsöhbətinizin etimadını qazanmağınız şərtdir. Həmsöhbətiniz sizə o qədər etimad etməli və elə bağlanmalıdır ki, onun bütün sevdiklərinə toxunsanız belə müqayisədə siz üstün gələsiniz...Bu təsir o qədər olmalıdır ki, sizin yanınızda olarkən üzləşəcəyi ağır işlər qarşı tərəfin təklif etdiyi zövq və səfadan üstün tutulsun... Mürşid həmsöhbətinin könlünə belə girməli və hər dediyini ona qəbul etdirməyi bacarmalıdır.

**Dördüncüsü,** müsəlmanlığa aid məsələləri yaxşı bilmək lazımdır. Hər kəs ağlına gələnləri söyləməməli və fəlsəfə yürütməməlidir. Dialektika və zahirə o qədər də fikir verilməməlidir...Yenə böyük mütəfəkkirlərin ifadəsi ilə desək qoyun kimi olmalıyıq. Öyrəndiyimiz şeyləri süd

halına gətirməli və ehtiyacı olanlara süd kimi şəfa qaynağı olaraq təqdim etməliyik.

**Beşincisi**, işlər ixlas və səmimiyyətlə edilməlidir...Allahın Rəsulu cihadı Allahın dinini ucaltmaq üçün verilən savaş kimi dəyərləndirir. Allahın adını elan etmək üçün aparılan müharibə Allah üçündür. Səmimiyyət olmadığı təqdirdə yazılarımızda, sözlərimizdə sadəcə özümüzü inandırırıq. Belə bir vəziyyətdə nə səmimiyyət, nə də savab qalır, ixlasın bu qədər zərbələr aldığı bir yerdə nə Allah rizasından, nə də könülləri əsir etməsindən bəhs edilə bilməz.

**Altıncısı**, mürşid və mübəlliğ hansı vəziyyətdə olursa olsun qəlbi dini, beyni isə dünəyvi elmlərlə dolu olmalıdır. Bu ikisinə sahib olan kəs istedad və qabliyyətini işlədərək öz daxilində dərinləşməli və ən azı imkanlarının yarısı qədərində ruhaniləşməlidir. Bu da bir baxımdan yuxarıda söylədiyimiz xüsusiyyətlə əlaqəlidir. Yəni ixlas və səmimiyyətə üstünlük verməlidir.

**Yeddincisi**, əgər bir məsələni bizim söyləməyimiz vicdanlarda etiraz və reaksiyaya səbəb olacaqsa "haqq daha üstündür" deyərək o məsələnin başqaları tərəfindən izah olunmasını qəbul etməlisiniz. Burada diqqət edilməsi lazım olan başqa bir incəlik var. Başqasının izah etməsinə razı olmaq bir məsələ, bundan xoşlanmaq isə başqa bir məsələdir. Biz ikincini qəbul etməliyik. Nəfsin xoşlanmadığı durumlardan biri də budur və bu, cavanmərdlikdir.

**Səkkizinci**, qarşımıza bilmədiyimiz məsələ çıxdıqda rahatlıqla etiraf etməli və "bilmirəm" deməyi bacarmalıyıq. Bilmədiyimizi etiraf edək, amma bu işi boş buraxmayaq. Öyrənək və qarşımızdakı həmsöhbətimizin də öyrənməsinə şərait yaradaq.

**Doqquzuncu**, irşad və təbliğ adamı cavanmərd olmalıdır. Olub olmazını mübarizəsi yolunda fəda etməyi bacarmalıdır. Könülləri fəthetmə yolunda cavanmərdliyini qazanmalı və bu yolda davam etməlidir... Cənnətə ilk dəfə alimlər, vaizlər, müəllimlər deyil, haqq və həqiqəti yaymaq uğurunda malını və canını fəda edən əsnaf, tüccar və ümumiyyətlə, qazanc səviyyəsindən asılı olmayaraq bütün comərdlər, haqqa fəda olan cavanmərdlər girəcəklər.

**Onuncusu,** burada xüsusi bir nöqtəyə toxunmaq istəyirəm. 15-20 il əvvəl bizim yuxularımızda belə görə bilməmiz mümkün olmayan bir mənzərəni bu gün açıq şəkildə görməkdəyik və bu, Cənabi Haqqın sonsuz lütfünün ifadəsidir. Bir litsey tələbəsinə Haqqı və həqiqəti başa salmaq üçün həftə və aylara ehtiyac duyulduğu dönəmi artıq keçmişik. Bəli, mən və mənimlə bərabər olanlar elə günləri xatırlayırıq ki, namaz qılan bir univaersitet tələbəsi ilə rastlaşdıqda Xızır və ya Cəbrayılı görürmüş kimi, sevinirdik. Dostlarımız könül dünyalarındakı nurlu mesajları çatdırmaq üçün bir tələbənin ardınca bəzən aylarla gəzir, amma heç nə edə bilməzdilər. Halbuki bu gün vəziyyət dəyişmişdir. Artıq indi bu işlə məşğul olanlar fərdlər deyil, kütlələrdir. Ən tərs insanların belə yumşaldığı və İslami məsələlərə qəbul edə biləcəyi nəzərilə baxdığı bir vəziyyəti müşahidə edirik. Bu durumda üzürimizə düşən vəzifə işin özündən və ruhundan

uzaqlaşmamaq şərtiylə yeni metod və üsullar axtarmaq və dəyərləndirmək olmalıdır. Əks təqdirdə dövrü qiymətlənrdirə bilmədiyi üçün funksiyasını itirən insanların vəziyyətinə düşə bilərik. Belə bir duruma düşməkdən Allaha sığınırıq. Ona görə də günün tələbləri çərçivəsində xidmət adına yeniliklərə adaptasiya olmaq məcburiyyətindəyik. Bu məsələdə nə qədər geciksək hədəfə çatmaqda da bir o qədər gecikəcəyik. İrşad və təbliği özünə vəzifə edənlər yaşadıqları dövrü qiymətləndirməli və irşadlarını bu özək üzərində qurmalıdırlar. Başqalarının fəzanı fəth etdiyi dönəmdə insanları qaranlıq dəhlizlərə çəkərək bəzi sözlər söyləməklə heç bir nəticə əldə edə bilməyəcəyimizi bilməliyik.

**Onbirinci,** kütlənin ruhi halından istifadə etmək onları cəlb etməyin asanlaşdırıcı metod və üsullardandır. Bu, asanlaşdırıcı metod və üsulların tətbiqi irşad və təbliğ üçün mümhüm vasitələrdəndir.(“Asrın Getirdiği tereddütler 3”, Səhifə:166-183).

## <u>6 – Fətullah Gülənin inqilabçılığı:</u>

### “Fasıldan Fasıla 2” adlı kitabda bu mövzuda qeyd olunan məqamlar

İnqilabçı ruhlara hava və su qədər ehtiyacımız var. İnqilabçılara, özlərini yetişdirməyi bilən və bildiklərini yeni-yeni düsturlar halında təqdim etməyi bacaran insanın yoxluğudur ki, mədəni və fikir həyatımızı iflasa sürüklənmişik... Belə bir dönəmdə Bədüzzaman kimi inqilabçı bir ruh meydana çıxaraq məntiq adına “Qızıl

İcaz" **əsərini yazır. Və bu əsəri bəzi tənbəl zehinləri düşündürmək üçün üçün yazdığını söyləyir. Amma o dönəmin tənbəl ruhları bu inqilabçı ruhun əsərini qəbul etmir. Fərqli fikirlər söylədiyi üçün Bədüzzamana qarşı cəbhə açırlar... Amma inanıram ki, yetişməkdə olan nəsillər arasında hər sahədə inqilabçılar çıxacaq və bir neçə əsrdən bəri davam edən durğunluq dönəminə son qoyacaqlar.** (Səhifə: 119-120).

**İnsanımız uzun illər onu ayaq üstə saxlayan dinamikadan xəbərsiz yaşadı. Bir müddət İslamın gücünü qavraya bilmədi. Quran sirlərini sezmədi və onun ruhundakı cövhəri dəyərləndirmədi. Amma bu gün onun öz dünyasına dönüşü fərqli olacaq. Fikrimcə, bu ikinci dönüşündə Quranı səmadan yeni enmiş kimi tanıyacaq. İslamla ilk dəfədir tanış olurmuş kimi, onu isti qəbul edəcək və əvvəlki nəsillər kimi, şübhələrdən doğan səthiliklərdə ilişib qalmayacaqdır.** (Səhifə: 239).

Dünənlə müqayisədə bu gün İslami məsələləri anlamaq daha asandır. Təbii ki, kütləvi çoxalma və böyümə bu xüsusda önəmli bir amildir. Əlbəttə kəmiyyət baxımdan bu, İslami məsələlərin təbliği və qəbul etdirilməsinə kömək edən bir vasitədir.

**Gələcək dünyada tək hakim ünsür İslam olacaq.** (Səhifə: 229).

Bizim əsas problemimiz imperatorluğun yıxılması deyil, ruhi plandakı iflasımızdır. Çox təəssüf ki, dövləti idarə edənlər bunu anlamırlar və anlamaq istəmirlər. Bəzilərinin

iddia etdiyi kimi, bizim yıxılmağımızın səbəbi mədrəsə deyil. Əslində mədrəsə yıxıldığı zaman millət də yıxıldı. Çünki mədrəsə bizim tariximizdə orta məktəbin, litseyin, universitetin və daha üstün ali təhsil müəssisələrinin gördüyü iş yerinə yetirirdi.

**Mədrəsələri bağlamaqdansa, onların daxilində islahat aparılmalı idi... Müasir təhsil sistemi hazırlanarkən ondan da istifadə olunmalıydı... Müasir məktəblər 50 ilini tamam etmədən tükənmişdir. İllərcə bir fakültədə təhsil almış insanın nəticədə boş olduğu məlum olur. Əgər xüsusi məşğul olanları kənara qoysaq, hətta ilahiyyat fakültələri daxil olmaqla mövcud sistemin ciddi elm adamı yetişdirmədiyi məlumdur.** (Səhifə: 11).

Hazırda İranda dini ağırlıqlı bir dövlət var. Məlum olduğuna görə, prezident və baş nazirin yanında hər an dövlətə müdaxilə edə biləcək bir dini lider var. Bu vəziyyət ABŞ və onun Qərbli tərəfdaşlarını narahat edir. Buna görə də müsəlman ölkələri "Dövlət ağırlıqlı din" siyasəti yürüdürlər. Bu, onların gözündə "Din ağırlıqlı dövlət" siyasətilə müqayisədə daha az şərdir. ABŞ-ın Pakistanı dəstkləməsinin səbəblərindən biri də budur. Yəni məqsəd din ağırlıqlı dövlət modelinin yayılmasını əngəlləməkdədir. (Səhifə: 10).

**"Fasıldan Fasıla 3" adlı kitabda yazılanlar;**

**Cümhuriyyətlə barəbər ərəbcə təhsilə qarşı çıxılması o dövrün ziyalıları və dövlət adamlarının yanılışlığı idi. Bu qərara o dönəmdə ərəblərin Osmanlıya çıxması da səbəb ola bilər. Ancaq indi keçmişə aid məsələnin**

**yararı olmadığı qənaətindəyəm. 46-cı illərdə "İmam Hatip" məktəbləri və ilahiyyat fakültələrinin açılması ilə birlikdə, öz dəyər və dinamikamıza dönüş dövrü başlamışdır. Bu illər demokratiya düşüncəsinin hiss edildiyi bir dönəmdir...** (Səhifə: 204).

**"Çağ ve Nesil 5" adlı kitabda yazılanlar;**

**Bizə aid olan bir çox şeylər kimi təkkənin (dərviş evləri) də səsi kəsildi. Zaviyə, dərgah xalq üçün bir iş görə bilmədi. Yaxud da biz onları eşidə bilmədik. Eşitmədiyimiz üçün ruhlarımız onları keçmişdə arayır və xəyallarımız o dönəmə aid nəşə və rahatlıq axtarır.**

...Bu ölkədə bir-iki əsrdir bir anlayış tıxacı, düşüncə tıxacı və düşüncə həyatımızın önünü kəsən durğunluq yaşanmaqdadır. Bəlkə də ara-sıra hakimiyyətlərin forması dəyişdirilərməklə müəyyən vaxt təsəlli dönəmi yaşanmış, idarəçiliyin şəkilləri dəyişdirilərək kütlələrin etiraz və qəzəblərini yatırtmış. Amma bunların heç biri millətin gözlədiyi olmamışdır. (Səhifə:105-106-107).

**"Prizma 1" adlı kitabda yazılanlar;**

Əgər bir gün dünya robotlarla idarə ediləcəksə, bu robotları idarə eədəcək komanda mərkəzi müsəlmanların əlində olmalıdır. Əgər gələcəyə texnologiya hökm edəcəksə, texnologiyanın mərkəzi qərargahı müsəlmanların nəzarətində olmalıdır. Ən nizami dəstələr, ən yaxşı tərbiyəçilər müsəlmanların içindən çıxmalıdır. Bu da unudulmamalıdır ki, qloballaşma ixtisas olaraq hüquqçuluğun əhəmiyyətini önə çıxarıb. Gələcəyin

idarəçiləri bələkə də hüquqçular olacaqdır. Bu baxımdan hüquq və siyasət, yəni mülkiyə çox önəm qazanmaqdadır. Buna görə də dünyanı çox yaxşı idarə edə biləcək hüquqçular yetişdirməyimiz lazımdır. Nəticədə dünyada hər hansı sahədə öndə olmağımız şərtdir...Eyni zamanda belə bir işdə tələskənliyə yol verilməməlidir. (Səhifə: 201).

## 7 – İŞIQ EVLƏRİ, TƏKKƏ, ZAVİYƏ VƏ MƏDRƏSƏLƏR:

**“Çağ ve Nesil 5” adlı kitabda işıq evləri haqda yazılanlar;**

...Nur evlər ətrafdakı bina yığınağı ilə müqayisədə içindəki ulduzlara nur ötürən bir məşəl və ya əbədi bir nur, rahatlıq axtaranları cənnətlərə qovuşdurmaq üçün qurulmuş bir çadır kimidir.

...Nur evləri olub keçmiş müqəddəs binaların ən üstünü, ən doğrusudur. Orada işığa qatılan hər kəs qaranlıqlara qarşı çıxar, ona qarşı qiyam edər və hisslərini hər yerdə bir şam yandırmaqla yaymağa başlayar. Buna görədir ki, nur evlərinin çoxalması təsəvvürə gəlməyən həndəsi vurğu ilə baş verir. Hətta bəzən daha üstün olur. (Səhifə: 1-6).

Hər axşam işindən, məktəbdən, evindən ayrılıb bir vahəyə gedirmiş kimi nur evlərinə gələrək özlərinə xas cazibədar düşüncələrə dalanlar, burada zehinlərinə ilişən mənfi fikirlərdən uzaqlaşır, dərin bir rahatlığa qovuşarlar... Hər axşam işdən qayıtmaq nur evlərinin üzvləri üçün həyata yenidən dönüş, özlərini dərketmə deməkdir. Onlar hər 24

saatda bir dəfə axirəti görür, ruhlardakı cənnətlərdə dolaşır və rəngli talelərinə təbəssüm edərək özlərindən gedərlər. Mən şəxsən nur çağından bu yana varlığımı Cəbrayılın açılıb-bağlanan qanadları arasında görmüş, bu nur evlərə axan zaman onların havasını, şivəsini qanımda hiss etmişəm. (Səhifə:145- 147).

**"Prizma 2" adlı kitabda nur evləri haqqında yazılanlar;**

İslami təbliğ və maarif hərəkatının başlanğıcında Allahın rəsulu da bu cür evlərdən başlamışdı. Dünyada yeddidən yetmişə qadın-kişi bütün insanlar bu məscidin camaatı, bu irşad və təbliğ məktəbinin istedadlı tələbəsi olmuşlar. Əslində ilk nur dönəmindən imam Rəbbaniyə, ondan sonra isə günümüzün böyük cəfakeşi Bədüzzamana qədər ümməti Məhəmmədə mürşidlik edən bütün şəxsiyyətlər eyni yolu keçmişlər. Bu nur evlərinin özlərinə xas özəllikləri vardır. Bu evlər insanlarda fikirlərdən yaranan daxili boşluqların doldurulduğu yerdir.. (Səhifə: 12-13).

## 8- XİDMƏT ƏRLƏRİ (ŞAGİRDLƏR):

**"Fasıldan Fasıla 1" adlı bu mövzuda yazılanlar;**

Camaatda birgə hərəkət vardır və olmalıdır. Və yenə camaatda istiqamət və doğrunu tapmaq şansı daha çoxdur. Əgər bir yanda 50-100 insanın vahid düşüncəsi, digər tərəfdə isə dahi olsa belə tək bir insanın düşüncəsi olarsa, üstünlük çoxluğa verilməlidir. Bu, ona görədir ki, Allah camaatla birlikdədir. (Səhifə:133).

Bundan başqa xidmət insanı onu mübarizəsindən ayıracaq hər şeyi əlinin dalı ilə itələyə bilməlidir. Ev, ailə, uşaq, iş? Ayağına qandal olan heç bir şeyin əsiri olmamalıdır. Əsasən bir qism xüsusi məqamlardan kənarda mübarizə adamının şəxsi həyatı olmamalıdır. (Səhifə: 87)

**Daha bir düşmən isə adətən qayə halına gətirilimiş ailə-uşaq sahibi olmaq üçün evlənməkdir.** (Səhifə: 117-118). Dini İslama xidmət edən hər kəs bir şəxsiyyətdir. Yəni dolayısı ilə də olsa bu işdə əsgəri intizam şərtdir. Zahirən əsgər olmasaq da ruhən əsgər olmalıyıq. (Səhifə: 125).

## <u>9- DAVA ADAMI, DAVA SİSTEMİ:</u>

Əsl mübarizə insanına vacib olan vəzifələrin ən önəmlisi öz işinə sədaqətli olmasıdır.... Xüsusən üzərinə düşən vəzifəni yerinə yetirməsi mübarizəsinə olan bağlılığı nisbətindədir. Bu gün prezidentlik, baş nazirlik kuboku yarışı keçirilir. İslam davasının mənsubları elə bir yarış üçün yaşayırlar ki, bu yarışın sonunda kubokun bir qulpundan özü, digər qulpundan isə Allah tutacaq. Belə bir kuboka canlar fəda olsa dəyər. ("Fəsildən Fəsilə 1", Səhifə: 121).

Üç-beş adamdan, minlər, milyonlarla insana rəhbərlik edənlərə qədər Allahın göstərdiyi, peyğəmbərin əlindəki məşəlin işıqlandırdığı yolda gedən və o yoldan ayrılmamaqda qərarlı olan bütün rəhbərlərə, bütün idarəçilərə tabe olun. ("Asrın Getirdiği Tereddütler 4", Səhifə: 169).

Əlbəttə, bu yeni insanın doğumu asan və rahat olmayacaq. Hər doğumda olduğu kimi onun da sancısı, sıxıntısı, sarsıntısı olacaq. Amma zamanı gələndə bu mübarək "övlad" mütləq dünyaya gələcək və bu ay üzlü Xızır kimi aramızda olacaq. Sıxılmış və üst-üstə minmiş buludların arasından rəhmət süzülüb gəldiyi, yerin təkindən suların fışqırıb üzə çıxdığı, qar əridiyi zaman qar çiçəkləri ətrafa yayıldığı kimi bu yeni insan da bəlkə bu gün, bəlkə də sabah, amma mütləq gələcək. ("Çağ ve Nesil 4", Səhifə: 157).

Əgər əlimdə imkanım olsaydı sizin hər birinizin içinə evinizin yolunu unutduracaq qədər istirab yerləşdirərdim. Elmin, ürfanın, araşdırma zövqünün, fənn və texnikaya açılmanın, zamanın söz sahibi olmanın yanında sizə bunu da edərdim. Edər və hər birinizi mübarizə düşüncəsi ilə dəli etməyə çalışardım. ("Fasıldan Fasıla 2", Səhifə; 140-141).

Mən artıq Ramiz ustadın oğlu deyiləm. Taleyim sizin taleyinizlə, mübarizənin taleyi ilə birləşmişdir. Bundan sonra mənim təkbaşına qərarlar verməyim və bu qərarlara görə hərəkət etməyim açıq və qapalı xidmətə xəyanət sayılır. Çünki verəcəyim yanılış qərarların risqi bütün camaata aid olur. ("Fasıldan Fasıla 2", Səhifə: 69).

**Bu gün biz müsəlmanlar çox ağır məsuliyyətin altındayıq. Bir vaxtlar səhabələr kimi seçilmiş insanların apardığı bu mübarizə indi bacarıqsızlığımıza rəğmən ilahi nemət olaraq zəif çiyinlərimizə yüklənib.** ("Fasıldan Fasıla 2", Səhifə 63).

Məsləhətləşmənin əhəmiyyətini dəfələrlə ərz etmişəm. Müsəlmanların bu tale savaşında təkbaşına hərəkət etmələri son dərəcə təhlükəli və zərərlidir. Hətta fərdi hərəkət etmək xeyirlə nəticələnsə belə yenə də bu cür hərəkət davaya küfr və üstüörtülü xəyanətdir. (“Fasıldan Fasıla 3”, Səhifə: 68-69).

Qarışıq bir dönəmə gəldik. Düşüncə pozuq, hal pozuq, bazar pozuq... Bədüzzaman həzrətləri kimi şəxsiyyətlərin kölgəsində özümüzü tapmağa çalışırıq. Çoxlu sayda insan müsəlmanlıq adına ata və babalarından öyrəndiyi əməlləri təkrarlayır. Bunların hamısını tək bir nəsil apara bilməz. Elə isə bu işlərin tələsmədən, öz axarı ilə getməsini gözləməliyik. (“Fasıldan Fasıla 1”, Səhifə:109).

Tələbələrin ağlı, ruhu, qəlbi tərbiyə edilsin deyə düşərgə təşkil edirdik. (“Küçük Dünyam”, Səhifə: 116). Birinci il düşərgəyə 70-ə yaxın adamla getmişdik. İkinci, üçüncü il təşkil olunan düşərgələrdə daha çox insan vardı. Hətta üçüncü il düşərgədə 300-ə qədər tələbə vardı. Gedənlərin yerinə yeniləri gəlirdi. (“Küçük Dünyam”, Səhifə105).

Düşərgələrdə oxunan kitablar ərəbcə tədris olunduğu üçün bir növ mdrsələrə çevrilirdi. Vəziyyət belə olduqda düşərgələrdə hərbi intizam, təkkənin ədəbi və mədrəsənin elmi birləşir və xəyallarımızda rəng və cizgiləri gözəllik və qətiliyi ilə mövcud olan dünya açılırdı. (“Küçük Dünyam”, Səhifə: 122).

İntizamlı, eyni zamanda ruhaniyyətli insanlar yetişdirmək yeganə məqsəd və hədəfəimizdir...Gecə yürüşləri, gündüzlər hərəkət etmələr, oturub durmağımız bu hədəfə hesablanıb. Dostlarımız Türkiyənin hər tərəfindən istədikləri tələbələri göndərirdilər. ("Küçük Dünyam", Səhifə:122).

Yer üzündə hər zaman İslama xidməti çiyinlərinə götürəcək fədakarlar ordusu olmalıdır. İnandığı xoşbəxtlik üçün yaşayan bu fədailər insanlığa həqiqi bir təbliğçinin necə olmalı olduğu dərsini verməlidir. Bu kadr o qədər fədakar olmalıdır ki, ölərkən üzərindən çıxan vəsait ancaq kəfən bezinə çatmalı, hətta bəzən ondan da az olmalıdır. ("İrşat Ekseni", Səhifə:109).

## 10- ATATÜRK VƏ DÜNYƏVİ RESPUBLİKA HAQQINDA:

**600 illik tariximizdə neçə etiraz aksiyası görə bilərsiniz? Osmanlını və Yeniçərini (Osmanlı dönəmində xüsusi qoşun birləşmələri. red) bu məsələdə günahlandıranlar öz tarixlərinə baxsınlar. 50-60 il ərzində ötən 600 ildə baş verən üsyan və etirazların neçə qatını görəcəklər?** ("Fasıldan Fasıla 1", Səhifə: 8).

Nəcib Fazil Qısakürək (türk şairi. red) bir konfransda "Kabakçı Mustafa, Mustafa Rəşid, Ələmdar Mustafa və daha nə Mustafalar nə Mustafalar" deyər deməz millət nə anladısa salon alqış tufanına büründü. Amma mən bunun nə ifadə etdiyini anlamadım. Belə sözlərə qulaq asmaq, alqışlamaq bir şey olsa da hər şey deyildir. ("Fasıldan Fasıla 2", Səhifə: 314).

## 11- TƏŞKİLATIN GƏLİR QAYNAQLARI HAQDA:

**İslamın ciddi bir mübarizə olduğunu dərk edən insanlar 40-da bir zəkatla bir iş görə bilməyəcəklərini anlamalıdırlar**. İslam davası bu gün bizdən daha çox fədakarlıqlar gözləməkdədir. Necə ki, bu davaya qoşulmuş müqəddəs mübarizə ərləri vardır. Bu gün əsas ümid qaynağımız olan bu insanlar evlərinin, maşınlarının, fabriklərinin açarlarını gətirib bizə təhvil verərək "istədiyiniz yerə istifadə edin" deyirlər. ("Fasıldan Fasıla 3", Səhifə: 57).

Bəli, böyük miqyasda xidmətlərin həyata keçirilməsi üçün maddi qaynaqlara ehtiyac duyulduğu bir həqiqətdir. Biz bunu peyğəmbərimizin sünnətində gördüyümüz üsulla xalqa söykənərək həyata keçirməyə çalışdıq və müxtəlif vasitələrlə onlara müraciət etdik. Onlar da dəstək verdilər. ("Fasıldan Fasıla 3" Səhifə: 75).

Bu səbəbdən də möminlərin ölkə daxilindəki və xaricdəki qazanc yollarını kəşf edib zəngin olmaları lazımdır. Hər şeyləri ilə xidmətə bağlanmış bu insanların ticarətdə çalışmaları, pullarını qorumaqda olan qorxuları – niyyətlərinə görə - düşmən qarşısında növbədə dayandığı zaman keçirdiyi qorxunun savabı ilə eynidir. ("Prizma 2" Səhifə: 33).

# İKİNCİ FƏSİL

## NURÇULUQ DÜNƏN VƏ BU GÜN

### 1-ci yazı: NURÇULUĞUN TARİXİ

Nurçuluq hərəkatının banisi Səid Nursi 1873-cü ildə Bitlis ilinin (vilayət) Nurs kəndində dünyaya gəlib. Əvvəllər Səid Kürdi tanınsa da Türkiyədə soyad qanunu qəbul olunduqdan sonra anadan olduğu kəndə bağlı olaraq Nursi soyadını qəbul edib. Səid Nursinin yüksək təhsili olmayıb. "Nur Risalələri" adlı kitabının Tizyaq adlı risaləsinin 68-ci səhifəsində əsərlərinin özü deyil, şagirdləri (nur tələbələri) tərəfindən yazıldığı qeyd olunur. Türkiyədə məşrutiyyət elan olunduqdan sonra Bitlsidə şeyxlik etməyə başlamış, ancaq az sonra İstanbula gəlib siyasi fəaliyyətə qoşularaq "İttihadi Muhamməd Cəmiyyəti"nin qurucularından biri olur.

Səid Nursi 31 mart qiyamından əvvəl Dərviş Vahdəddinlə yaxın əlaqələri qurur. O zaman dərc olunan "Vulkan" adlı qəzetdə yazdığı məqalələri ilə 31 mart hadisəsini körükləndirənlərdən və həmin dönəmdə yaradılmış "Kürt Teali Cəmiyyəti"nin fəallarından olur. 1912-ci ildə yazdığı bir kitabında "oyan ey Səlahəddin Əyyubinin nəvələri kürdlər" deyərək kürdləri türklərə qarşı qaldırmağa cəhd edir. Məktubat adlı əsərində isə "türk olmadığını, türklük ilə münasibətinin olmadığı, Türkiyədə kürd millət adlı başqa bir millətin olduğunu" irəli sürür.

Səid Nursi istiqlal savaşı zamanı xilafətin bərpa olunacağı ümidi ilə Ankaraya gəlir. Ancaq Türkiyədə

dünyəvi respublika qurulduqdan sonra ümidini itirərək Vana gedir. 1925-ci ildə Şeyx Səid üsyanından sonra həbs olunan S.Nursi İsparta əyalətinin Barla kəndinə, daha sonra isə Kastamonu, Afyon və Əmirdağa sürgün edilir. Bundan başqa Afyon, Dənizli, və Əskişəhər həbsxanalarında yatır. Səid Nursi 23 mart 1960-cı ildə Urfada vəfat etsə də yetişdirdiyi tələbələr (nur şagirdləri) onun fəlsəfəsini günümüzə qədər gətirib çatdırıblar.

Nurçuluq bir təriqət kimi fəaliyyət göstərsə də, nurçular bu hərəkatın təriqət deyil, Qurani-Kərimin 20-ci əsrdə təfsiri üzərində qurulmuş bir məktəb olduğunu və sayı 130-a çatan Nur risalələrinin də Quranın təfsiri olduğunu iddia edirlər. İlk dəfə 1955-57-ci ildə Qurani-Kərim və Nur Risalələrinin yazılması ilə bağlı nurçular arasında yaranan parçalanmalar S.Nursinin ölümündən sonra daha da dərinləşir. Nəticədə təriqət bir neçə qrupa bölünür. **Birinci** qrup “Qurana küfr yazısı ilə xidmət olmaz” şüarını irəli sürərək Nur risaələlərinin mütləq ərəbcə və əllə yazılmasını, bunun üçün də bütün nurçuların ərəbcəni öyrənməsinin lazım gəldiyini bildirir. Bu qrupa **“yazıçı nurçular”** deyirlər. **İkinci** qrup **“oxuyucu nurçular”** kimi tanınır. Bu qrup dinə xidmət edən əsərlərin latın əlifbası ilə yazılmasını məqbul görürlər**.** **“**Oxuyucu” və “yazısı” qrup arasında narazılıqların sonunda 1969-cu ildə “oxuyucu”lar içərisindən “Fətullah Gülən qrupu” ayrılır. Bu qrupun digərlərindən fərqi onların tələbələr arasında təbliğata üstünlük verməléridir. 1982-ci ildə baş verən Konstitusiya səsverməsi zamanı “oxuyucu” qrup arasından **“qəzetəçi”** və **“şuraçı”** adlı yeni bölmələrin ayrılması baş verir. Bu gün **Yeni Nəsilçilər** kimi tanınan **“qəzetəçi”** qrupu 1982-ci il Konstitusiyasına

“yox”, “Şuraçı” qrup isə “hə” deyilməsinin tərəfdarı idilər. Bu gün nurçular “Qazetəçilər”, “Şuraçılar”, “Fətullah Gülənçilər” və “Yazıçılar” adlı qruplardan ibarətdirlər. Bu quruplar arasında yalnız “yazıçılar” nisbətən zəifləyiblər. Nurçuluğun dünyəvi respublikaya və Atatürkə qarşı hərəkat oluduğunu görmək üçün “Nur risalələri”nə baxmaq yetərlidir. Həmin kitabın “Barla məktubları” bölməsində, səhifə 53-də Atatürk nəzərdə tutularaq: “Tək gözlü Dəccal, ya iman et, ya bütün dunyanın istehza yeri olacaqsan” deyilir.

Nurçuluq nəzəriyyəsində Türkiyə Cümhuriyyətinin tamamilə şəriət və İslam prinsipləri əsasında idarə olunması, xilafət və səltənətin bərpa edilməsi, inqilabların keçici olduğu və Qurandan başqa bir Konstitusiyaya ehtiyac olmadığı vurğulanır. Cəmiyyətdə təpki olacağından ehtiyat edərək nurçulər risalələrdəki bu hissələri seçərək baş tərəflərinə məhkəmələrin bəraət qərarını əlavə edirlər.

## TÜRKİYƏ ALİ MƏHKƏMƏSİNİN NURÇULUQ HAQDA HESABATI

Nur risalələri 130 bölmədən ibarətdir. Bunların arasında “Asayı Musa”, “Məsnəvi nuriyə”, “Gənclik rəhbəri”, Məktubat”, “Tiryək”, “Xütbeyi Şamiyə”, “Xanımlar rəhbəri”, “İki məktubi müsibətin şəhadətnaməsi və ya Divani Hərbi Örfi”, “Barla həyatı”, “Bədüzzaman cavab verir”, “Lemalar”, “Bizə nurçu deyənlərə cavab veririk ki, əl hüccəti Zəhra”, “Ramazan risaləsi”, “İxlas risaləsi” və “Sönməz” adlı risalələr məhkəmə araşdırması mövzusu olub.

Nurçuluq fikirləri maddiyatçı və təbiətçi modern fəlsəfəni rədd edir, dünyanın keçici olduğu və əsas həyatın axirət olduğunu təlqin etməklə insanlara dünya səadətini haram edir.

Nurçulara görə, dünyəvi dövlət şəriətə ziddir. Türkiyə quruluş etibarı ilə dindən uzaqlaşmış və dinə qarşıdır. Xristianlıq dünyəvi əsaslara malik olmadığı üçün burada dinlə dünya işləri biri-birindən ayrıdır. Ancaq İslam heç bir islahata ehtiyacı olmayacaq qədər mükəmməldir.

Dünyəvi respublika 20 illik inqilablardan sonra ortaya çıxmış və dini çətin vəziyyətə salmışdır.

Atatürk idarəçiliyi hədislərdə göstərilmiş dəhşətli axırzamandır. Dinsizlik, qanunsuzluq, fəsad komitələrinin fəaliyyət göstərdiyi illərdir.

Türkiyə azanın qadağan edildiyi, bidətlərin cəmiyyətə qəbul etdirildiyi bir dövr yaşamışdır. Bu dövr qanunları xristianlıqdan götürülüb və müvəqqətidir.

Türkiyənin siyasi rejimi Nur səadətini söndürməyə çalışır. Kamalistlər səviyyəsiz anarxistlərdirlər.

Dövlət İslamın siyasi prinsiplərinə görə təşkil olunmalıdır. Bütün həyat nuru ondadır.

İslam aləmində olacaq dəyişikliklər dinin əsaslarına uyğun olmalıdır. Əks halda qeyri-qanunidir. Bu baxımdan Məclis həm də xilafət vəzifəsini yerinə yetirməlidir.

Hökumətin müsəlman olması lazımdır.

Türk dövlətinin dini İslamdır, onun qorunması isə millətimizin boynuna düşən vəzifədir. Hökumət İslam və din üçün xidmət deməkdir.

Müsəlmanlara Qurandan başqa bir Konstitusiya lazım deyil. 1347-ci (hicri) ildə bu dindar millət əhəmiyyətli dəyişikliklərə düçar olaraq Konstitusiyadan dövlətin

dininini İslam olması maddəsi çıxarılmışdır. Quran Cümhuriyyət Kostitusiyası kimi bir neçə nəfərin qələminin deyil, İlahi iradənin təcəssümüdür.

İslamiyyətə və Qurana qarşı mürtədcəsinə mübarizə aparan bir hiyləgər zındıqdır ki, bizi əsarət altına almaq üçün öz mütləq istibdadına Cümhuriyyət adı verib, əyyaşlığa mədəniyyət maskası taxmaqla kefi istəyən qanunlar qəbul edərək hərbi rejim qurmuşdur.

Səid Nursi milliyyət və millətçilik fikirlərinə düşməndir. Onun fikrincə, milliyyətçilik İslam birliyinə əngəldir. Nurçulara görə, milliyyətçilik bolşevizm və sosializmə qarşı mübarizə aparacaq gücdə deyil:

**"İslam dövlətinin yeganə milləti İslam millətidir. İslam dövləti sonda bütün dünyanı hakimiyyəti altına alacaq və vahid İslam dövləti quracaqdır. Bu dünya milləti mənəvi həyata əsaslanacaqdır. Bu İslam dövləti İslamın izzəti əsasında qurulacaq və ittiahadi Muhəmmədi davasını aparan Şeyxi Risaleyi Nur sayəsində qurulacaq.**

**İttihadi İslam bütün şəxsiyyətlərə və bütün əhli İslama məxsusdur. Kənar heç kim yoxdur"**.

**"Xütbeyi Şamiyə"**də İslam millətinin səadətinin yalnız və yalnız həqiqi İslamda olduğu, maddi idarəçiliyin isə İslam şəriəti əsasında olması vurğulanır. Sonra isə şəriət hökmlərinə görə oğrunun əlinin kəsilməsinin faydalı olduğundan bəhs olunur.

Səid Nursiyə görə İslam dövlətinin Məkkeyi Mükərrəməsi Ərəb yarımadası, Osmanlı isə Mədineyi-Münəvvərəsi şəklini alacaqdır.

“İslam dinində inqilab etmək şəriətə qarşı çıxmaq olduğu üçün İslamın əmrlərinə ziddir. Çevirilişlər isə bütövlükdə dinə qarşıdır.

Çoxarvadlılıq İslamda olduğu üçün caiz və şərtdir. Bu, təbiətə, ağıla və hikmətə müvafiqdir.

Müasir mədəniyyətin çoxarvadlılığa etirazını susduracaq ən kamil təfsirim Quranın müvavfiq ayələridir”.

Nurçuluğa görə, bu günkü ailə sistemi müasir mədəniyyətin fantaziyalarından biridir. Ailə səadəti yalnız şəriətdəki İslam qaydaları ilə mümkündür. Qadının kişidən boşanması İslami əsaslara ziddir. Şəri evlənmə bu əsası aradan qaldıracaq.

Səid Nursi faizin qadağan olunmasını, sinfi mübarizənin aradan qaldırılması üçün bankların bağlanmasını və sələmçiliyin qadağan edilməsini istəyir: “Quran qadına üçdə bir hissə verir, müasir mədəniyyətin qadına kişi ilə eyni hissə ayırması əxlaqsızlıqdır”.

**“Xanımlar rəhbəri”** risaləsinin 37-ci səhifəsində Səid Nursi bir zaman çıxdığı Ankara qalasından ətrafı seyr edərkən Xilafət və Səltənəti xatırlayaraq təəssüf və kədər hissi keçirdiyi qeyd edir.

**“Tiryək”** adlı risaləsində isə qeyd edir ki, Qərb alimləri və filosofları İslam qanunlarının müsəlman cəmiyyətini islah edəcək qüdrətə sahib olduğunu etiraf edirlər: “Nurlu şəriətimiz 13 əsr əvvəl meydana çıxdığı üçün əhkamda Avropaya dilənçilik etmək İslama böyük xəyanət və şimala istiqamətdə namaz qılmaq kimidir. Əgər bəşəriyyət tez bir zamanda ağlını başına toplayaraq İlahi ədalət və İslam hüququ əsasında məhkəmələr qurmazsa başlarına maddi və mənəvi qiyamətlər qopacaq, anarxistlərə və yəcuc-məcuclara təslim olacaqlar”.

## NUR TƏLƏBƏLƏRİ (ŞAGİRDLƏRİ) VƏ ONLARIN VƏZİFƏLƏRİ

Nurçular özlərinə “Nur tələbələri” adı verərək **“Hizbul-Quran”** olduqlarını bildirirlər. Nur şagirdlərinin Nurçuluq təriqətinə daxil olmaları üçün yaşadıqları məhəllərinin ən böyük nurçusuna və bəzi qaydalara tabe olmalıdırlar. Bunlar, **Nurçuluğa və təriqət böyüklərinə sədaqət, təşkilatın sirrini verməmək, məqsədlərini həyata keçirmək üçün məsləhətləşmələr aparmaq və nurun gerçəkləşməsi üçün çalışmaqdan ibarətdir**. Nurçuların təriqətin fəaliyyəti ilə bağlı məsələləri Nur böyüklərinə bildirmələri vacib şərtdir. Nur tələblərinin bir vəzifəsi də “Nur risaləsini” çoxaldıb yaymaqdır. Səid Nursi “Asayı Musa” (Musanın əsası) adlı əsərində risalələri çoxaldıb yaymayanları qınayır. Nurçuluğun bütün dövlət strukturları, xüsusən də ordu nümayəndələri arasında yayılmasına ciddi önəm verilir.

Məhkəmənin hesabatında qeyd olunur ki, Səid Nursi nurçuluğun yayılmasında insanların dini duyğularını istismar edir. “Sönməz” adlı risalədən bu mövzuda çıxarış: “Axirət qardaşlarıma iki tövsiyəm var. Birincisi, Risaleyi Nura qəbul olan şəxsin ən əhəmiyyətli vəzifəsi onu yazmaq, yazdırmaq və yayılmasına yardım etməkdir. Onu yazan və yazdıran “Risaleyi Nur Tələbəsi” adını alır və bu ad altında hər 24 saatda mənim yüz və bəzən də daha çox xeyir-dualarıma, qazanclarıma şərik olmaqla yanaşı, mənim kimi dua edən minlərlə qiymətli qardaşım və risaleyi nur tələbələrinin dua və qazanclarına şərik olur.

İkincisi, Risaleyi Nurun amansız və imansız inni-cinni düşmənləri onun basılmaz qalalarına və almas qılınc kimi iti dəlillərinə müdaxilə edə bilmədikləri üçün gizli vasitə və materiallarla bu yazıların şövqünü qıraraq şeytanca zərbələr vururlar".

Səid Nursi nur tələbəliyindən çıxmağın günah olduğunu, onların fəaliyyətlərinə mane olanların isə vətən və millət xainləri olduğunu elan edərək təhdidlərlə yeni təşkilatını qurub. Nur tələbələrinin subay qalanları qınanır, təcili evlənməsi vacib olanların nurçu xanımlarla evlənməsi əmr edilir.

## İslam dini baxımından nurçuluq

Türkiyə Diyanət İşləri Başqanlığının nurçuluq haqda hazırladığı yazıda təriqətin İslami yöndən təhlili verilir:

Ayələrin təfsirində mənadan da kənara çıxan batini və mənəvi şərhlər verilir, əbcət hesabı və anlaşılan mənalər çıxarılır, müsəlmanlığa görə bunların dini və elmi qiymətinin olmadığı,

Nur risalələrini cəm halda oxumanın bir növ təşkilatlanma olduğu təbliğ olunur.

Eyni zamanda Risaleyi Nuru müqəddəsliklər sırasına aid edir və yalnız nurçuların müsəlmanlar arasında xüsusi bir zümrə olduğu, Səid Nursinin və əsərlərinin ecazkarlığı və kəramətləri barədə şişirdilmiş ifadələrdən istifadə edirlər.

Bu və digər məqamların üzərində dayanan Diyanət Vəqfi ekspertləri sadalanan ibarə və ifadələrin İslamın

əsaslarına uyğun olmadığı, Nurçuluğun milli və dini birliyi parçalayan zümrəçilik olduğu qənaətinə gəliblər.

# ÜÇÜNCÜ FƏSİL

## FƏTULLAH GÜLƏN TƏRİQƏTİ

### 1. Məqsədləri:

Bu qurupun son hədəfi bütün dövlət sistemlərində Şəriət hökmlərini əsas olduğu bir İslam diktatorluğu qurmaqdır. Fətullah Gülənin məktəblərdə beyinlərini yediyi gənclik içərisində qurduğu təşkilatı vasitəsilə dünyəvi, demokratik və hüquqi dövlət olan Türkiyə Cümhuriyyətini devirib şəri qanunların hakim olduğu İslam dövləti yaratmağa çalışdığı təsdiqlənib. O, bu məqsədinə çatmaq üçün müasir demokratik üsullara cavab verən "yumşaq İslam" (ılımlı islam) nəzəriyyəsindən və həmçinin cəmiyyətin böyük əksəriyyəti tərəfindən müsbət qarşılanan ölkə daxilində və xaricdə yaratdığı məktəblərdən istifadə edir. Roma papası ilə görüşən F.Gülən sadəcə Türkiyədə deyil, bütün dünyadakı müsəlmanlara rəhbərlik etmək istəyini ortaya qoyub. Təriqət siyasi partiya, şəxslər və bəzi dövlət məmurları tərəfindən qəbul edilməsi səbəbindən məqsədinə çatmaq üçün böyük imkanlara malik olan və Türkiyədə ən güclü şəkildə təşkilatlanmış bir irtica qrupudur.

**2. Strategiyası:**

Fətullah Gülən İslamçı ideologiyanı əsas tutaraq əlində olan böyük maliyyə gücü hesabına;

A – Nəzarətində olan vəqf, məktəb və hazırlıq kurslarında yetişdirilmiş gənclərdən ibarət elektorat (tərəfdarlar) toplamaq,

B – Dövlət idarələrində, bütün bürokratik aparatda, Milli Təhsil Nazirliyi və Polis Təşkilatında öz kadrlarını yerləşdirmək,

V – Xarici ölkələrdə Türkiyədə qurulacaq siyasi İslama simpatiya ilə baxacaq bir gənclik formalaşdırmağa çalışır.

Tolerantlıq və sülhsevərlik tabloları ilə bəzi dövlət dairələrini ələ alan Fətullah Gülən hədəfinə çatana qədər ictimai fəaliyyətlərə dəstək verdiyi imicini yaradaraq, əsl həqiqətin qarşısını loyallıq və demokratiya çətiri ilə örtməyə çalışır.

Fətullah Gülənin yaratdığı tələbə seçmə qrupları kənd və məhəllələri gəzərək zəkalı və bacarıqlı şagirdləri seçir və əlindəki imkanlarla özünə bağlayır. Onun düşüncələri evlərdə, məktəblərdə, düşərgələrdə sürəkli təbliğat vasitəsilə gənclərin beyinlərinə yeridilir. Bu toplantılarda Atatürk inqilab vasitəsilə cəmiyyəti İslamdan və inancdan uzaqlaşdırdığı üçün Dəccal (Axırzamanda ortaya çıxacaq baş fitnəkar) kimi tanıtdırılır.

Fətullah Gülən sahib olduğu imkanlar vasitəsilə səmavi dinlərin təmsilçiləri ilə dialoq quraraq "Dünya Dinlər Birliyi" adı altında bir kampaniya həyata keçirir. O, burada İslam dinin təmsilçisi kimi çıxış edərək beynəlxalq səviyyədə qarşılıqlı mənfəətlərə hesablanan bir

strategiyanın əsasını qoyub. F.Gülənin fəaliyyətindəki məxfilik, tərəfdarlarının ona bağlılığı, o cümlədən, keçərli, sərt və mərkəzləşdirilmiş strukturu Türkiyədə ən güclü irtica qurumudur. Fətullah Gülən şəriət dövləti yaratmaq məqsədinə çatmaq üçün xüsusi olaraq gəncliyi səbrlə özünə bağlamağı strateji məqsəd edərək bunun vasitəsilə cəmiyyətə hakim olmağa çalışan bir siyasət yürütməkdədir.

### 3. TƏŞKİLAT:

Fətullahçılar başda F.Gülən olmaqla ən sonuncu adama qədər enən bir təşkilatlanma yarada biliblər. Təşkilatın rəhbəri Fətullah Güləndir. Ondan sonra müşavirlər, şəhər imamları, əsnafa (xırda ticarət) nəzarət edən imamlar, məhəllələrə cavabdeh imamlar, evlərə cavabdeh imamlar və üzvlərə nəzarət edən imamlar kimi aşağıya doğru vəzifə sıralanması mövcuddur. F.Gülən tələbələrin təşkilatlanmasına xüsusi önəm verir. Təcrübəsiz gənclər onun təşkilatının özəyini təşkil edən nur evlərində özlərini F.Gülənə təslim etdirəkcək bir təlim alırlar.

### 4. Ölkə daxilindəki fəaliyyətləri:

F.Gülən təşkilatının bütün Türkiyəni əhatə etdiyi görünsə də onlar Samsun-Adana silsiləsinin qərbindəki vilayətlərdə, universitet ətraflarında və şərqdə Ərzrum vilayətində ən güclü şəkildə fəaliyyət göstərirlər. Türkiyədə 88 fəqf, 20 dərnək, 128 özəl məktəb, 218 şirkət, 129 hazırlıq kursu və 500-ə yaxın tələbə yataqxanası ilə yanaşı, biri ingilisdilli olan 17 mətbuat orqanı, orta hesabla 250 min tirajı olan qəzet, televiziya, beynəlxalq səviyyədə

yayınlanan 2 radiostansiya, faizsiz maliyyə qurumu və bir sığorta şirkəti onlara məxsusdur. F.Gülən qrupu xüsusi olaraq təhsil sahəsində zaman-zaman dövlətdən də üstün imkanlara sahib olub. Bu qrupun planlı, proqramlı, gizli çalışmalarının qarşısında yeganə əngəl Türk Silahlı Qüvvələridir. Qrupun Türk Silahlı Qüvvələrinə qarşı yürütdüyü siyasət, zahirdə göstərdiyi dostcasına münasibətin fonunda polisi gücləndirməklə müvazinət saxlamaq və lazım gəldikdə polisi orduya qarşı istifadə etməyə hesablanıb. Eyni zamanda Türk Silahlı Qüvvələrini ələ keçirmək məqsədilə gizli işləri davam etdirirlər. Türk Silahlı Qüvvələrinin əməkdaşları arasına öz adamlarını yerləşdirməyə çalışırlar. Bu məqsədlə hətta kiçik zabitlərin övladlarını məktəblərinə və kurslarına qəbul edərək, daha sonra onları yetişdirib hərbi məktəblərə yerləşdirməyə çalışırlar. Bundan başqa F.Gülən tərəfindən silahlı qüvvələr arasında dayaqlarını artırmaq üçün yeni planlar cızılıb. Bunların biri də hərbi məktəblərdə təhsil alan kursantların ələ alınmasıdır. Bu məqsədlə mədəni səviyyəsi yüksək, özünə bağlı, hicab bağlamayan xanım üzvlərin kursantlarla tanış olub evlənmələrinə şərait yaradılır. Bu iş davam edərsə 10 il ərzində türk ordusunda söz sahibi olmağı planlaşdırırlar.

## 5. Xaricdəki fəaliyyətləri

Fətullah Gülən planlı şəkildə xaricdə də təşkilatlanmanı davam etdirir. Əsas hədəf isə yeni müstəqillik əldə etmiş türk respublakalarıdır. İqtisadi-siyasi problemləri çox olan yeni türk respublikalarında tərəfdar toplamaq, **İranın şiə təbliğatını zəiflətmək,** maliyyə ehtiyaclarını təmin etmək üçün ticarət şirkətlərini

dövriyyəsini genişləndirmək, bu dövlətlərdə ehtiyac duyulan özlərinə bağlı məmur kadrlarını yetişdirmək, Türk-İslam Birliyi ideyasını təbliğ etmək kimi çoxşaxəli işlər görürlər.

Dünya İslam Birliyi yaratmağı xəyal edən F.Gülən türk və müsəlman olmayan ölkələrdə də fəaliyyət göstərir. Bu fəaliyyətin məqsədi xarici ölkələrdə özünə bağlı bürokratik kanalların yaradılması, qloballaşma dönəmində ən əhəmiyyətli silah olacaq güclü informasiya mübadiləsi sisteminin qurulması, tərəfdarlarının şəxsi həyatlarını təmin etmək və təsir dairələrini genişləndirməkdir. F.Gülən qrupu bu məqsədlə 1992-ci ildən xarici ölkələrdə başlatdığı fəaliyyətin nəticəsi olaraq 35 ölkədə 6 universitet və ali təhsil mərkəzi, 236 litsey, 2 ibtidai məktəb, 8 xarici dil və kompüter mərkəzi, 6 universitetə hazırlıq kursu, 21 tələbə yataqxanası olmaqla ümumilikdə 279 təhsil qurumu yaradıb.

Xaricdə açılan məktəblər yerləşdikləri ölkələrdə dövləti idarə edəcək sayda və qabliyyətdə kadrlar yetişdirəcək, bu kadrların Türkiyədə qurulacaq İslam dövlətinə simpatiya ilə baxmasını və nəhayət gələcəkdə Türkiyədə qurulması planlaşdırılan siyasi İslama beynəlxalq səviyyədə siyasi dəstəyi təmin edəcəklər. Türkiyə hökumətində olan məlumatlara əsasən F.Gülən 1998-ci ildə papa 2-ci İohann Pavelin dəvətilə Vatikanda olaraq onunla görüşüb. Bu görüş İslam və Xristian dünyaları arasında dialoqun yaradılması məqsədilə həyata keçirilmiş və F.Gülən burada Türkiyə islamçılarını təmsil edən lider kimi təqdim olunmuşdur.

## 6.Maliyyə mənbələri

F.Gülən böyük və əhatəli fəaliyyətini həyata keçirmək üçün güclü maliyyə mənbələrinə malikdir. Bu mənbələr ümumi şəkildə məlum olsa da, digər irticaçı qruplarla müqayisədə onların fəaliyyəti daha gizli şəkildədir. F.Gülən möminlərin varlı olmasını şərt hesab edir. Ancaq tək-tək varlı adamlardansa çoxlu sayda şərikə məxsus böyük sərmayəli şirkətlərin yaradılmasına üstünlük verir. Çünki həddən artıq varlı olan bir nəfər dünya işləri ilə məşğul olaraq əsas hədəfə çatmaq istiqamətində fəaliyyətini axsada bilər. F.Gülən qrupu böyük sayda daşınmaz əmlaka sahibdir. Bu əmlaklardan yüksək rəqəmlərə çatan icarə haqqı əldə edirlər. Təkcə qrupa bağlı "Akyazılı" vəqfinin 23 vilayətdə çoxlu sayda mənzil, dükan, büro, məktəb, hazırlıq kursu və yataqxanası var.

F.Gülən qrupunun siyasi partiyalara dəstək verməsilə bağlı məlumatlar da mövcuddur. 1997-ci ildə ona yaxınlığı ilə tanınan "Asiya Finans" şirkəti dövlətdən 553 milyard türk lirəsi dəyərində pul almışdır. Aydın olur ki, o, siyasi partiya və şəxslərə dəstək verməklə onların vasitəsilə dövlətin imkanlarından yararlanır. F.Gülən təhsili maliyyələşdirmək məqsədilə özünə bağlı iş adamları və şirkətlərdən vergi şəklində illik və aylıq pul toplayır. Xüsusilə də onun Qazaxıstandakı məktəblərini maliyyələşdirmək üçün Dənizlidəki tərəfdarlarından 1 milyon dollar pul toplaması haqda məlumatlar var. Bu cür fəaliyyətlərin Afyon, Malatya, Kayseri və İzmir vilayətlərində də həyata keçirildiyi söylənilir. Eyni zamanda qrup Türkiyədəki universitet, orta, ibtidai məktəblərdən, eləcə də dil mərkəzlərindən əldə etdiyi

böyük miqdarda gəlirləri bu istiqamətə xərclədiyi bildirilir. Digər tərəfdən, "İşık Sığorta", "Asya Finans" kimi böyük şirkətlərdən əldə olunan gəlirlər, "İş Həyatı Dayanışma Dərnəyi" (İŞAD) və "Gənc İşadamları Dərnəyi" (GİAD) ətrafındakı iş adamlarının yardımları F.Gülənin önəmli maliyyə mənbələrindən sayılır. Bundan başqa televiziya, radio, qəzet və jurnal kimi media orqanlarından da əhəmiyyətli gəlir əldə edir.

## 7. F.Gülənin siyasi hədəfləri

F.Gülən ilk mərhəldə dövlətə qarşı çıxmasının onu zəiflədəcəyini başa düşdüyündən mövcud quruluşa qarşı çıxmaqdansa, hazırkı dövlət modelinə uyğun sistem qurmağı qərara alır. Yaxın gələcəkdə dövlət idarəçiliyini nəzarət altına ala bilmək üçün qısa müddət ərzində bütün dövlət postlarına öz tərəfdarlarını yerləşdirməyə və ya bu postları tutanları özünə bağlamağı qarşısına məqsəd qoyur. Uzaq gələcəkdə isə dövlət idarəçiliyini tam nəzarət altına almaq üçün təhsil sahəsində böyük bir proqram həyata keçirməyə başlayır. Yumşaq və modern müsəlman imici ilə siyasi partiyalar və hətta Atatürkçü dünyəvi dairlər arasında da özünə dəstək qazanmağa çalışır. Eyni zamanda, Türkiyə Böyük Millət Məclisində (parlament) deputatların böyük çoxluğuna nəzarət etmək və qarşısına məqsəd qoyduğu teokratik diktaturaya yumşaq keçidi həyata keçirmək üçün başqanlıq sistemini dəstəkləyir. F.Gülən heç bir qüvvənin qarşısını kəsə bilməyəcəyi gücə sahib olduqda Atatürk dəyər və inqilablarını ortadan qaldırmağı, dünyəvi, demokratik, sosial hüquq dövlətini şəriət dövləti ilə əvəz etməyi planlaşdırır. O, bu məqsədinə nail olmaq üçün bütün dinlərin və ölkələrin nümayəndələri

ilə əlaqəyə girib onların gələcəkdə özünə qarşı müxalif fəaliyyət göstərməmələrini, əksinə dəstəklərini almağı düşünür. Artıq bir çox ölkələrdə gələcəkdə quracağı şəriət dövlətini dəstəkləyəcək gənc kadrları yetişdirir.

## 8.Fətullah Gülən qrupunun böyük şirkətləri:

Türkiyə Baş Polis İdarəsinin məlumatlarına görə, ölkənin hər yanında - bütün vilayətlərdə - şirkətlərini, məktəblərini, yataqxanalarını, hazırlıq kurslarını, vəqflərini, mətbuat orqanlarını yaradaraq fəaliyyət göstərən F.Gülən qrupu geniş bir şəbkəyə malikdir. Bu qurumların ən əhəmiyyətliləri bunlardır:

“Zaman qəzeti”, “Samanyolu TV”, “CHA” (Cihan Xəbər Agentliyi), “Sızıntı” jurnalı, “Aksyon” jurnalı, “İş Həyatı Dayanışma Dərnəyi”, “Asya Finans Qurumu”, “İşıq Sığorta AŞ”, “Çağ Öyrənim İşlətmələri AŞ”, “Fatih Eyitim və Öyrənim Qurumları AŞ”, “Samanyolu Basın Yayın Sanayi və Ticarət AŞ”, “Feza Qəzetəçilik AŞ”, “Ufuk Eytim İşlətmələri Ticarət AŞ”, “Fırat Eytim Mərkəzi İstanbul Ticarət AŞ”, “İstanbul FEM Dərshanələri”, “Akyazılı orta və yüksək təhsil vəqfi”, “Türkiyə öyrətmənlər vəqfi (TÖV)”, “Türkiyə qəzetəçilər və yazarlar fəqfi”, “Özəl Maltəpə kursları”, “Fatih Universiteti”.

## 9.Fətullah Gülən məhkəmə qarşısında

Qeyd edək ki, nurçu ideoloq F.Gülənin bu cür geniş fəaliyyətinə Türkiyədə seyrçi qalmayıblar. Onun barəsində bir neçə dəfə məhkəmə iddiası qaldırılıb və xüsusi dövləti

cinayətləri araşdaran ordu məhkəməsi onu mühakimə edib. F.Gülənin nurçuluğu təbliğ etməsi, Atatürk dəyərlərinə qarşı çıxması, onu gəncliyə düşmən olaraq tanıtdırması və digər ittihamlar səbəbilə İzmir Sıkyönətim (nizami) Askeri Məhkəməsi 20.09.1972-ci ildə onun barəsində Türk Cəza Qanunun163/4 maddəsilə 3 il ağır həbs cəzası, eyni qanunun 31-ci maddəsilə ümumi rejimdə saxlanılması, TCQ-nun 173-cü maddəsilə daha bir il Sinopda baş hərbi təhlükəsizlik idarəsinin nəzarəti altında saxlanılması haqda qərar çıxarmışdır.

# DÖRDÜNCÜ FƏSİL

## Fətullah Gülənin ABŞ kəşfiyyatı ilə əməkdaşlığı

Səid Nursi ötən əsrin əvvəlində ingilis imperializminin İslam coğrafiyasına hakimlik etmək üçün yaratdığı nəqşibəndi triqətinin bir şeyxi idi. Osmanlı imperatorluğu yıxılarkən işğalçılara əməkdaşlıq etdiyi üçün məhkum edildi, Atatürk hakimiyyti dönəmində məhkum idi. Ancaq Türkiyə NATO-ya üzv olduqdan sonra Nur təriqətini yarada bildi...

Həmin dönəmdə Amerika rəhbərliyi NATO vasitəsiylə üzv və qonşu ölkələrdə "kommunizmlə mübarizə" adı altında özünə bağlı təşkilatlar yaradırdı. 1991-ci ildə İtaliyada bütün NATO ölkələrində qurulduğu məlum olan təşkilatlara Qlaydo adı verildiyi xəbəri cəmiyyətə açıqlandı. Ancaq daxili mənbələrdə bu təşkilatlar "Super NATO" adlandırılırdı. Türkiyədə Super

NATO təşkilatlanması kəşfiyyat qurumları tərəfindən başladıldı. Daha sonra Türkiyənin bütün hakimiyyət dairələrində bu təşkilatlanma güclü şəkildə aparılmağa başladı. Türkiyədə 12 mart 1971 və 12 sentyabr 1980-ci il hərbi çevrilişlərini "Super NATO" həyata keçirdi və hakimiyyətə gəldi. Ölkə parlamenti tamamən bu qurumün nəzarəti altına düşdü. "Super NATO"nun nökəri Fətullah Gülən bu gün dörd qitədə fəaliyyət göstərən şəriətçi qurumunun təmələni "Super NATO"nun ilk sivil təşkilatı olan Kommunizmlə Mübarizə Dərnəyinin (KMD) bazasında qoydu. İlk şöbəsi 1954-cü ildə İzmirdə yaradılan bu dərnək Türkiyədə şəriətçi sağçı militanların təlim mərkəzi olur. Gülən "Küçük Dünyam" adlı kitabında KMD-nin ikinci şöbəsini anadan olduğu Ərzurumda açdırdığını fəxrlə yazır: "Bu istiqamətdə növbəti işimiz Ərzrumda KMD-nin şöbəsini açmağımız oldu. Həmin vaxta qədər yalnız İzmirdə bir şöbəmiz vardı. Dostlardan birini İzmirə göndərib nizamnamə gətirtdik. Mən moizədən sonra gəncləri Cəfəri camisinin önünə topladıq. Məqsədimiz kommunizmə qarşı təşkilatlanmaq idi".

F.Gülən təşkilatını nurçu düşərgələrinin bazasında yaratmağa başladı. Bunun üçün əlində olan ən önəmli vasitə İzmirdə Kastenapazarda qurduğu "İmam Hatib və İlahiyyata Öyrənci Yetişdirmə Dərnəyi" idi. O zaman KMD-də yeni kadrlar yetişdirmək üçün "komando düşərgələri" qururdular. Qəribəsi bu idi ki, hər iki düşərgə eyni məkanda, biri-birinə yaxın qurulurdu. Rəhbərləri də eyni idi: ABŞ-ın Türkiyəni NATO üzvlüyü üçün yaratdırdığı, maliyyələşdirdi, təlimçi göndərdiyi Qlaydo. **Şəriətçi nur şagirdlərinin də, faşist ideologiyalı "komandolar"ın da rəhbəri "Super NATO" idi**. Bir

zamanlar Kastenpazarında gündüz yaramazlıq edənləri axşam falaqqaya çəkən F.Gülənin bu gün nəzarət etdiyi güc Türkiyə Genelkurmay Başkanlığının (baş hərbi qərargah) 1998-ci ildə hazırladığı məruzəyə görə bunlardan ibarətdir: “Ölkə daxilində 85 vəqf, 18 dərnək, 89 özəl məktəb, 207 şirkət, 373 hazırlıq kursu, 500-ə yaxın tələbə yataqxanası və biri ingilisdilli olmaqla 14 jurnal, 15 ölkədə yayımlanan 300 min tirajlı “Zaman” qəzeti, beynəlxalq səviyyədə yayınlanan iki radio və “Samanyolu” televiziyası. Türkiyədən kənarda isə 6 universitet və ali məktəb, 236 litsey, 2 ibtidai məktəb, 8 dil və kompüter mərkəzi, 6 universitetə hazırlıq kursu və 21 tələbə yataqxanası olmaqla ümumilikdə 279 təhsil qurumu var.

## Amerika ilə əlaqələri

F.Gülən yüksəlişinin hər pilləsinə görə Türkiyədəki amerikapərəst siyasi liderlərə borcludur. Onun təşkilatının qurulmasına pul buraxanlardan biri də 1960-cı illərdə uzun müddət baş nazir olmuş Süleyman Dəmirəl idi. F.Gülən beynəlxalq səviyyədə fəaliyyətini ABŞ-ın Türkiyəyə ən çox təsiri olduğu 1980-ci ildə başladıb. Həmin vaxt dövlət içərisində mənbələri o qədər güclü idi ki, hərbi çevriliş baş verdikdən bir gün sonra, yəni 13 seyntyabr 1980-ci ildə barəsində əməliyyat keçir iləcəyi haqda məlumatı öyrənib qaça bildi. Bundan sonra F.Gülənin təşkilatı bir qədər qapalı fəaliyyətə keçir. Fətullahçı təriqətin növbəti sıçrayışı 1986-cı ildə baş verir. O zaman baş nazir olan Turqut Özal F.Güləni İzmir “Sıkyönətim Komandanlığı” (Türkiyədə xüsusi hərbi nizami idarə) qüvvələrindən xilas edir. Ancaq F.Gülənin ən güclü fəaliyyət dönəmi MKİ əməkdaşı və ABŞ vətəndaşı olması hərbi məhkəmədə

araşdırılan Tansu Çillərin baş nazir olduğu 1993-97-ci illərə təsadüf edir. Həmin dövrdə Gülənin hətta Türk Silahlı Qüvvələrinin təzyiqlərinə qarşı dayanacaq qədər gücü vardı. O özü 1995-ci ildə keçirdiyi bir mətbuat konfransıda bir generalın ordu komandanı olmaması üçün hası işləri gördüyünü açıqlamışdı.

Maraqlıdır ki, ABŞ-ın dünyada hegemonluq iddiasına düşməsi, prezident Ronald Reyqanın "Demokratiya layihəsi" və Beynəlxalq Demokratiya Fondunun fəaliyyətə başlaması ilə F.Gülən təşkilatının güclənməsi arasında bir paralellik müşahidə olunur. Bu səbəbdən də F.Gülən təşkilatı Reyqan hakimiyyəti dönəmində SSRİ-ni çökürtmək üçün işə salınan və 1981-ci ildə rəsmiləşən "Demokratiya" layihəsinin bir ünsürü hesab olunur. "Demokratiya" layihəsi 1970-ci ilərdə ABŞ Beynəlxalq Təhlükəsizlik Şurasının qəbul etdiyi "Yaşıl Qurşaq" siyasətinin görünən üzü idi. ABŞ bir tərəfdən ən qatı amerikapərəst diktatorlara dəstək verir, digər tərəfdə isə MDİ-yə (Milli Demokratiya İnstitutu) "insan haqları və demokratiya" ixracı vəzifəsini tapşırırdı. "İnsan haqları" dedikdə təbii ki, etnik, dini və mədəni hüquqlar nəzərdə tutulurdu. Dünyanın hər tərəfini bürüyən din və məzhəb davaları, mikromilliyyətçiliyin qızışdırılması ilə milyonların həyatına son qoyan milli qarşıdurmalar bu layihənin əsəridir. Bu layihəni həyata keçirən təşkilat isə "National Endowment for Demokracy" (NED), yəni Milli Demokratiya İnstitutu (MDİ) idi. ABŞ-ın "Nyusvik" jurnalı MDİ-nin MKİ-dən daha güclü bir təşkilat olduğunu yazırdı. ABŞ-ın "Demokratiya layihəsi" müsəlman ölkələrinin gündəminə "yumşaq (ılımlı) İslam" təbliğatı ilə gəldi. "Yumşaq İslam" ideologiyası ilə həm "dinlərarası

dialoq"a zəmin hazırlayır, həm də ABŞ-ın dünyəvi cəhətdən inkişaf edən ölkələrə nəzarət etməsi üçün zəmin hazırlanırdı. Əslində "ılımlı İslam" termini İslam fundamentalizminin qarşısını almaq üçün yaradılmamışdı. Şəriətin hakim olması üçün mübarizə aparan "yumşaq islamçılar" dini baxışlarında deyil, ABŞ-a və onun yürütdüyü siyasətə qarşı mülayim olmalıydılar.

**Pentaqon tərəfindən İslam coğrafiyasında "yumşaq İslam" hərəkatının lideri kimi qəbul edilən F.Gülən özünə** bağlı "Zaman" qəzetində Qərblə əlaqələri haqda belə danışır: "İnanmış insanın Qərbə müxalif, Qərb və Amerikaya inteqrasiyaya qarşı olması qətiyyən ağıla gəlməz". 1980-ci il 12 sentyabrda Türkiyədə Amerikanpərəst hərbi çevrilişdən sonra "Türk İslam sintezi" rəsmiləşdi, təriqətlər Qeyri Hökumət Təşkilatları statusu aldı. Gülən təriqətinin inkişafı sadəcə bu mərhələnin nəticəsi deyildi. Dövlət içərisində təşkilatlanan amerikapərəst təşkilatlar artıq açıq fəaliyyətə keçirdi. Egey Ordu və Nizami komandanlığının F.Güləni həbs etdirdikdən sonra elə həmin gün azadlığa buraxdırılması və həbsxanalardakı ülkücü (millətçi) gənclərin qrup halında F.Gülənin təşkilatına üzv olması təxminən eyni dövrə təsadüf edirdi. Gülənin Qlaydonun killerləri Abdullah Çatlı və Haluk Kırıcılarla əlaqələri də məhz həmin dönəmə təsadüf edir. 1980-ci il ərəfəsində Milliyyətçi Hərəkat Partiyasına bağlı Ülkü Ocaqları Dərnəyinin sədr müavini olan Abdullah Çatlının 1996-cı ildə bir neçə polis orqanı rəhbəri ilə bir yerdə Türkiyədə böyük hay-küyə səbəb olan müəmmalı ölümündən sonra Özəl Hərbi Dairənin yetişdirdiyi killerlər cəmiyyətə məlum oldular. F.Gülən bu zaman həbsxanalarda

köməksiz vəziyyətdə qalan ülkücülərə böyük miqdarda maddi yardımlar ayırırdı. Kommunizmlə Mübarizə Dərnəyilə F.Gülənin ikinci yaxınlaşması bu dönəmə təsadüf edir. Eyni zamanda maraqlıdır ki, MHP-nin (Milliyyətçi Hərəkat Partiyası) parçalanaraq onun içərisindən Möhsin Yazıçıoğlunun rəhbərlik etdiyi Böyük Birlik Partiyasının yaranmasında F.Gülənin rolu olduğu təsbit olunub. Böyük Birlik Partityası militanları 1990-cı illərdən sonra bütün beynəlxalq terror şəbəkələrində yer alır: Bosniya, Çeçenistan, Gürcüstan, Azərbaycan, Kəşmir, Sinsiandakı (Çin) şəriətçi terror militanlarının özəyi Böyük Birlik Partiyası idi.

## Fətullah Gülən və Moon təriqəti

Moon təriqəti və Fətullah Gülən qrupunun MKİ ilə əlaqələrinin ən böyük örtüyü ABŞ-ın "dinlərarası dialoq" oyunu idi. 1950-ci illərdən sonra dünya hegemonluğu iddiasına düşən ABŞ qitələrarası imperatorluğunu saxlamaq üçün hər bir böyük din içərisində özünə bağlı təriqət yaratdı. Bu təriqətlrin hamısının şüarı "dinlərarası dialoq" idi. MKİ-nin nəzarəti altında həyata keçirilən bu fəaliyyətin ilk uğurlu nəticəsi Moon təriqəti oldu. 1951-ci ildə Cənubi Koreyanı işğul edən Amerika burada özünə bağlı xristian təriqəti yaratdı. Az sonra Cənubi Koreya əhalisinin 40 faizi bu təriqətin üzvü oldu. Bu "uğurun" əsas müəllifi isə dünyada Moon təriqəti kimi tanınan, rəsmi adı isə "Birləşdirmə kilsəsi" olan cərəyan idi. MKİ-nin qurduğu Koreya kəşfiyyatının Vaşinqton təmsilçisi Bo Hi Pak Moon təriqətinin ən güclü nümayəndələrindn biri sayılırdı. MKİ Dünya Antikommunist Liqasını təşkilatlandırarkən Moon tərqətindən istifadə edirdi. Türkiyədə

qurulan Kommunizmlə Mücadilə Dərnəyi isə Dünya Antikommunist Liqası ilə əlaqəli fəaliyyət göstərirdi. 1978-ci ildə ABŞ Konqresində Moon təriqəti ilə bağlı dinləmələrdən sonra təşkilat zəifləsə də gücünü itirmədi. Reyqan dönəmində baş verən İrangeyt qalmaqalında bu təşkilatın adı hallanırdı. Corc V. Buşun (ata Buş) prezidentliyi dönəmində Moon təriqətinə məxsus "Vaşinqton Tayms" qəzeti neokonservatizm və ABŞ təcavüzkarlığının əsas orqanı idi. Fətullah Gülənin Türkiyədə yaratdığı "Zaman" qəzeti ilə "Vaşinqton Tayms" qəzeti arasında sıx əməkdaşlıq isə bu gün də artan istiqamətdə davam etdirilir. Moon təriqətinin həmçinin İsrail ilə yaxın əlaqələri mövcuddur. Təriqətin Latın Amerikasındakı hərbi diktaturalarla İsrail arasında terror və narkotika ticarətində əlaqələndirici fəaliyyəti diqqəti çəkir. F.Gülənin İsraillə olan yaxın əlaqələri də diqqətdən kənarda qalmamalıdır. Körfəz savaşında İraq İsrailə "Skad" raketləri atarkən İstanbulda söylədiyi moizələr, tökdüyü göz yaşları, etdiyi bəddualar çoxlarına məlumdur. Bu moizələrin yazıldığı kasetlər dindarlar arasında əldən ələ gəzirdi. Onlar üçün İsraillə əlaqələr ABŞ ilə yaxınlaşma üçün açar sayılır. Qraham Fuller islamçı hərəkatlar haqda yazdığı "Mühasirədəkilər" kitabında qeyd edir ki, İslamçı hərəkatların Qərbə inteqrasiya üçün etməli olduqları əsas iş İsraillə yaxşı əlaqələr qurmaqdır...

F.Gülənin islamçı kütlələri özündən uzaqlaşdıracağını belə göz önünə alaraq Qüds Başahamı ilə yaxın əlaqələr qurması, Fətullahçı iş adamları dərnəyinin İŞHAD İsraillə biznes əlaqələri yaratması bu siyasətə görədir. "Abramoviçlə məni Qasım Gülək tanış etdi" deyən F.Gülən Moon təriqəti ilə əlaqələri eyni hədəflər uğurunda

çalışmalarına görə deyil, artıq aralarında bir təşkilatı birliyin olmasına işarə edirdi. Moon təriqətinin Türkiyə nümayəndəsi, Cümhuriyyət Xalq Partiyasının keçmiş baş katibi Qasım Güləklə F.Gülənin dostluğu da artıq gizlədilmir. Ayrı-ayrı mətbuat orqanlarında F.Güləni reklam edən yazar Hulusi Turqut 21 yanvar 1998-ci ildə “Yeni yüzil” qəzetində yazır: “Qasım Güləklə F.Gülən arasında yaxın əlaqələr vardı. Tez-tez görüşürdülər. Q.Gülək vəfat edəndə ona cənazə namazı qıldırmışdı. F.Güləndən soruşduq: Amerikanın sizə olan etimadının səbəbkarı Qasım Gülək idi? O isə cavab verdi ki, Qasım Güləyin baldızı Amerikada yaşayırdı, Pentaqonla əlaqləri vardı. O zaman fərqli-fərqli yerlərdən, Ağ Evdən bizim barəmizdə “bunlar kimdir?” deyə soruşublar, o isə “əndişə ediləcək bir şey yoxdur” deyərək bizə etimad göstərib”.

“Zaman” qəzetinin 1998-ci ilə 1 senytabr sayında isə bu əlaqlər barəsində belə deyir: “ABŞ-da görüşdüyüm insanlardan biri də Abramoviç idi. O, bir zaman ABŞ-ın Türkiyədə səfiri olmuşdu. Bizim yanımızda müştərək dostumuz Qasım Gülək də vardı. Onun vasitəsilə qiyabi tanışlığımız var idi... “Zaman” qəzetinin 1997-ci ilə 1 iyun sayında dərc olunan yazısında F.GFülən 1992-ci ildə ABŞ-a getdiyini, burada Q.Gülək və Pentaqonda polkovnik vəzifəsində çalışan, sonralar şübhəli şəkildə avtoqəzada həlak olan baldızının vasitəçiliyi ilə Pentaqon və MKİ rəhbərliyi ilə əlaqələr qurduğuna işarə edir. Moon təriqəti ilə F.Güləni birləşdirən daha bir şəxs isə Qladyonun killeri Abdullah Çatlı olub. A.Çatlı 1981-ci ildə Dünya Antikommunist Liqasının toplantısına qatılır. 1992-ci ildə ABŞ-da Aeroportda F.Güləni qarşılayan da A.Çatlı idi.

## “Falun-Gong”, “Scientology”, “Moon” və “Gülən təriqəti”

Böyük maliyyə imkanlarına sahib olan təriqətlərdən biri də “Scientology” adlanır. Bu qurumun həm Amerikada, həm də Avropada ən yaxın tərəfdaşı F.Gülən təriqətidir. MKİ-nin nəzarəti altında fəaliyyət göstərən daha bir təşkilat isə Çində fəaliyyət göstərən “Falun-Gong” təriqətidir. Bu dörd təşkilatın hamısının nəzəriyyəsində, dini görüşlərində, fəaliyyət tərzləri və hədəfləri arasında aydın şəkildə hiss olunan yaxınlıq var. Bunun əsas səbəbi isə onların komanda mərkəzinin bir ünvan olmasıdır. Bu təşkilatların hamısı MKİ üçün çalışır və onun tərəfindən idarə olunur. Türkiyədəki bəzi təriqətlər Quran kursu və İmam Hatib ilahiyyat litseyləri yaradaraq din təbliğinə üstünlük verərkən F.Gülən camaatı Turqut Özalın hakimiyyəti dönəmində Türkiyə daxilində özəl Anadolu litseyləri və kollecləri açırdı. F.Gülən bu məktəblərdə xristian missionerlərinin təcrübəsindən istifadə edərək əsas elmlər səviyyəsində təhsilə üstünlük verirdi. Osmanlı ərazisində təşkilatlanmaq istəyən xristian missionerlər əvvəlcə nəzəri dini biliklər tədris etməyə başlasalar da, uğursuzluğa düçar olduqları üçün sonradan səthi dünyəvi elmlər əsasında təhsilə üstünlük verən kolleclər yaratmağa başlamışdılar. 1915-ci ildə Osmanlı ərazisində xristian missionerlərinin Amerikadakı ən böyük təşkilatı “Amerikan Board”ın 600-dən artıq məktəbi vardı. Cümhuriyyət yaradılarkən Atatürk bu məktəblərin hamısını bağlatsa da, Türkiyə NATO-ya daxil olduqdan sonra bu məktəblər yenidən açıldı. Missioner kolleclərində xristianlıq gizli şəkildə təbliğ olunurdu. Fətullahın məktəblərində isə təriqət təlimləri yataqxanalarda və

tələbələrin yerləşdirildiyi "işıq evləri"ndə gizli şəkildə öyrədilir. Universitetə qəbul olmanın xeyli çətinləşdirildiyi Türkiyədə Fətullah Gülənin yaratdığı məktəblərdə dövlət məktəblərindən daha yaxşı təhsil verilir. Buna görə də ailələr uşaqlarını bu məktəblərə qoyurlar. Ancaq bu məktəblərdə təhsil alan şagirdlərin böyük əksəriyyətində Türkiyə Cümhuriyyəti və Atatürkə qarşı düşmən münasibət, ABŞ-a rəğbət formalaşdırılır.

SSRİ çökdükdən sonra F.Gülən qrupu postsovet respublikalarında təhsil sistemi yaratmağa başladı. Gülənin əsas diqqət verdiyi ölkələr Orta Asiya, Qafqaz və Balkanlar idi. 1992-ci ildən sonra Orta Asiyadan başlayaraq daha sonra Qafqaz və Balkanlarda Fətullahçı kimi tanınan şirkət və vəqflər təhsil müəssisələri yaratdılar. Bundan sonra Asiya və Afrika ölkələrinə keçərək burada məktəblər açmağa başladılar. İndiki anda 5 qitə olmaqla 52 ölkədə 21 tələbə yataqxanası, 6 universitetə hazırlıq kursu, 257 litsey, 21 dil mərkəzi və 6 universitetləri var. Bu məktəblər üçün xərclənən ümumi məbləğ Gülənin özünün etiraflarına görə, 1 milyard 205 milyon dollardır. "Soyuq müharibə" dönəmində ABŞ-ın SSRİ-ni içəridən çökdürmək üçün hazırladığı "MKİ müxalifəti"nin F.Gülən qrupunun rahat fəaliyyət göstərməsinə şərait yaratdığını müşahidə edirik. Sovetlərə qarşı aparılan psixoloji müharibənin ən aparıcı "silahı" sayılan "Azad Avropa Radiosu" F.Gülənin bülletenlərini baş xəbər kimi yayır. Dünyanın müxtəlif dillərində yayınlanan "Amerikanın səsi" radiosu isə türk dilindəki proqramında F.Gülən qrupunun fəaliyyəti dönə-dönə öyülür. Osmanlı torpaqlarında açılan Amerika kollecləri kimə xidmət edirdisə, Gülənin məktəbləri də eyni mərkəzə xidmət

göstərir. Bu məktəblər əsasən MKİ-nin diqqətində olan ölkələrdə açılır. F.Gülən məktəblərinin yayılma coğrafiyasına nəzər yetirməklə MKİ-nin maraq dairəsinə daxil olan ölkələri sıralaya bilərik: Qazaxıstan (28), Rusiya Fedarasiyasının müxtəlif bölgələrində (24), Özbəkistan (18), Türkmənistan (15), Azərbaycan (14), Qırğızıstan (11). Bu siyahıya Albaniya və Monqolustan (ümumilikdə 4), Əfqanıstan, İraq, Gürcüstan, Ukrayna və Rumıniya (cəmi 5), Moldova (2), Pakistan, Banqladeş, Makedoniya, Macarıstan, Fas, Cənubi Afrika, Sudan, İndoneziya, Tayland və Tayvan kimi ölkələrin hər birində bir məktəb açılıb. Dünyanın narkotika mərkəzlərindən olan Tayland sərhəddindəki Çenday qəsəbəsinədə məktəb və yataqxana yaratmaq Türkiyə maraqları baxımından bir əhəmiyyət kəsb etmir, ancaq MKİ-nin maraqlarından baxdıqda çox önəmlidir.

5 qitəyə səplənmiş məktəbləri təmin etmək üçün Türkiyədə şirkətlər quruldu. Bu şirkətlər Təhsil Nazirliyindən xaricdəki məktəblər açmaq üçün icazə aldılar. Ardınca həmin məktəblərdə çalışacaq təhsil ordusu müəyyən olundu. Sayı 4 minə çatan müəllimlərin yaşları 22-35 arasında idi. Hamısı da ingilis dilini çox gözəl şəkildə bilirdi. F.Gülənin tövsiyə və tapşırıqları ilə məktəb açmaq üçün yaradılan şirkətlər bunlardır: "Çağ Öyrətim İşlətmələri AŞ", "Feza Qəzetəçilik AŞ", "Şelalə AŞ", "Eflak AŞ", "Kazak Türk litseyləri Genel müdürlüyü", "Sebat AŞ", "Silm AŞ", "Taşkent Eyitim Şirkəti", "Serhat Eyitim Öyrətim və Sağlıq Xidmətləri AŞ", "Tolerans Vəqfi", "Ufuk Eyitim Vəqfi", "Toroz Eyitim Hizmətləri Turizm və Ticarət AŞ", "Ertoğrul Qazi Eyitim Öyrətim AŞ", "Karaçay Çərkəz Toros Eyitim Xid. Tur. və Tic AŞ",

“Palantökən Eyitim Öyrətim Xid. AŞ”, “Dunay 94 Şti”, “Özəl Burq AŞ”, “Dostluq Yurdu Dərnəyi”, “İnternational Hope Ltd Kompani”, “Fezalar Eyitim Öyrətim Ticarət Ticarət Limited Şirkəti”, “Çağlar Eyitim Mal. Ltd. Şti”, “Balkanlar Eyitim və Kültür Vəqfi”, “S.C Lumina SA Şirkəti”, “Gülüstan Eyitim və Yayın Ltd. Şti”, “Sema Eyitim Öyrətim İşlətmələri AŞ”, “Samanyolu AŞ”, “Türkiyə Sağlıq və Tədavi (müalicə) Vəqfi”, “Yayasan Yenbu İndoneziya Vəqfi”.

1998-ci ildə Türkiyədə F.Gülən barəsində dünyəvi quruluşu dəyişmək məqsədilə terror təşkilatı yaratmaq ittihamı ilə həbs qərarı çıxarıldı. Bu məlmatı vaxtında öyrənən F.Gülən ABŞ-a qaçaraq Penselvaniya ştatında məskunlaşdı. F.Gülən ABŞ-da olarkən məktəbləri bu ölkənin dəstəyi ilə açdığını etiraf etdi: “Amerikalılar istəməsə heç kim dünyanın müxtəlif yerlərində iş görə bilməzlər. Bu gün bəzi könülülər təşkilatları dünyanın fərqli nöqtələrinə gedib dünyaya inteqrasiya şüarı ilə məktəblər açırlar. Amma bu işləri Amerika ilə qarşı-qarşıya olduğunuz zaman edə bilməzsiniz”. Gülən ABŞ rəhbərliyindən dəstək aldığını digər bir çıxışında da gizlətmir: “Amerika indiki gücü və təsiri ilə bütün dünyaya rəhbrlik edə bilər. Bütün dünyada görülən işlərə bu ölkədən nəzarət edilir. Amerikanlar hələ də bu dünya gəmisini idarə edən millətin adıdır. Bu ölkə hələ uzun zaman dünyanın taleyində önəmli rol oynayacaq. Bu reallıq qəbul edilməlidir. ABŞ-ı nəzərə almayıb orada-burada iş görməyə başlamamalısınız”.

F.Gülənin ABŞ ilə yaxınlığı onun hətta Türkiyə prezidentinin mühafizəçiləri sırasına düşməsinə belə şərait

yaradacaq qədər güclü idi. 1997-ci dekabrın 25-də F.Gülənə yaxın olan "Qəzetçilər və Yazarlar Vəqfi"nin təşkil etdiyi "beynəlxalq əlaqələr, tolerantlıq və dialoq" adlı mükafatlandırma tədbirində prezident Süleyman Dəmirələ də "Şükran nişanı" verilmişdi. Həmin vaxt Türkiyədə F.Gülənin məktəbləri yoxlanılır, özü barəsində isə dövlətə qarşı fəaliyyətlərinə görə məhkəmə araşdırılması aparılırdı. Prezident Dəmirəlin irticaya qarşı mübarizə aparan dövlət orqanlarının işinə mane olan bu addımı atmasının səbəbi maraq doğururdu. Məlumatlara görə, Dəmirəli bu mükafatı almağa ABŞ-ın Türkiyədəki səfiri Mark Parris razı salıb. O da bildirilir ki, M.Parris 1997-ci il dekabrın 8-11-də İslam Konfransı təşkilatının zirvə toplantısından qayıdarkən prezident Dəmirəllə görüşür. Qeyd edək ki, Dəmirəl İKT-nin Türkiyəyə qarşı göstərdiyi münasibətə görə toplantını bir gün əvvəl, yarımçıq tərk etmişdi. Dekabrın ikinci həftəsi baş verən görüşdə Parris ölkəsinin Türkiyənin Yaxın Şərq və Orta Asiyada "yumşaq İslamı" yayması siyasətini dəstəklədiyini bəyən edir, bu siyasətin fəal icraçısı olan F.Güləni tərifləyir. Türkiyəyə gəldiyi ilk 10 gün ərzində prezidentlə 3 dəfə görüşdüyünü şəxsən etiraf edən M.Parris ABŞ kəşfiyyatının mühüm simalarından sayılır. Ankaraya Ağ Evdən, prezident Bill Klintonu gətirən heyətlə birlikdə gələn M.Parris həm də ABŞ kəşfiyyatının Yaxın Şərq və Cənubi Asiya üzrə cavabdeh nümayəndəsi idi. Məlumata görə, Dəmirəl üçün "Qəzetəçilər və Yazarlar Vəqfi"nin dəvətnaməsini gətirən şəxs eyni zamanda sabiq səfir Abramoviçin sözlərini də çatdırır.

## Fətullah Gülən məktəblərində MKİ-nin agent müəllimləri

F.Gülən camaatı tərəfindən xaricdə yaradılan məktəblərdə diplomatik pasportlu MKİ agentləri "ingilis dili müəllimləri" adı altında çalışırlar. Bu əməkdaşlıq Türkiyədə keçirilən bir tədbirdə F.Gülənin məktəblərinin birini rəhbəri tərəfindən etiraf edilib. Bu barədə dövlət kitablarında da qeyd olunur. 1997-ci il martın 3-də Türkiyə Təhsil Nazirliyi xaricdə təhsil müdürlüyünün ölkədən kənardakı türk məktəbləri mövzusunda tədbir keçirilir. Tədbirə təhsil naziri başda olamaqla biri sıra təhsil üzrə mühüm dövlət orqanları rəhbərləri, hətta Baş nazirlik, MİT və XİN-dən də nümayəndələrin qatıldığı bildirlir. Sözügedən tədbirdə çıxış edən Özbəkistanda Fətullahçılara məxsus 18 məktbi idarə edən "Silim AŞ"-ın rəhbərlərindən olan Mehmet Mesud Ata ABŞ-ın Özbəkistanda çalışan 70 nəfər müəliimə diplomatik pasport verdiyini bildirir: "ABŞ "dostluq körpüsü" adı altında çalışan 70 müəllimə diplomatik status verib. Əgər dövlətimiz, səfirliyimiz bizə də diplomatik statusun verilməsini təşkil etsə o zaman bu ölkədə türk müəllimlərinin də etibarının bir az artacağını düşünürəm". Özbəkistanda cibində diplomatik pasport gəzdirən ABŞ "müəllimləri"nin çoxu F.Gülənin məktəb-lərində ingilis dili müəllimi kimi qeydiyyatdadırlar. Qırğı-zıstandakı Gülən məktəblərində çalışan 60-a yaxın amerikalı ingilis dili "müəllim"i bu məktəbləri idarə edir. Maraq doğuran digər məqam isə F.Gülən məktəblərində tədris dilinin ingilis dili olmasıdır. F.Gülənin Türkiyədən kənarda yerləşən məktəblərində çalışan min nəfərə yaxın amerikalı müəllim yalnız dövlət vəzifəlilərinə verilən ABŞ rəsmi pasportu gəzdirir. Əsasən türkdilli yeni respubli-

kalarda çalışan bu müəllimlərin hamısında ingilis dilində “offisial passeport” deyilən sənəd var. ABŞ Təhsil Nazirliyinin əməkdaşları sayılmayan bu müəllimlər turist pasportu ilə fəaliyyət göstərməliydilər, ancaq ABŞ hökuməti nədənsə F.Gülənin məktəblərində çalışan müəllimləri rəsmi vəzifə sahibi sayır. Qeyd edək ki, bu pasportu gəzdirənlərin diplomatik toxunulmazlığı var. Amerika mənbələri bu pasportların MKİ-nin təlimatıyla verildiyinə işarə edirlər.

Türkiyə Baş Qərargahı yanında islamçı fəaliyyətləri izləmək üçün yaradılan “Batı Çalışma Qrupu”nun məruzəsində qeyd olunurdu ki, əgər doğrudan da F.Gülənin məktəbləri onun etiraf etdiyi mənbələr hesabına maliyyələşsəydi, o zaman bu məktəblər çoxdan müflis olmalıydı. Çünki Türkiyədə yığılan pullar hesabına dünyanın əksər ölkələrində bu qədər sayda məktəbləri saxlamaq mümkün deyil. Bu halda aydın olur ki, F.Gülənin fəaliyyətinə kənardan maliyyə dəstəyi olur. Digər tərəfdən, əməkhaqqı almadan xaricdəki Gülən məktəblərində çalınaşan yüzlərlə amerikalı müəllim, həmçinin yeni yaranmış türk respublikalarında bir sıra yeni binaların Fətullahçılara bağışlanması da sual doğuran məsələlərdəndir.

Amerikada fəaliyyət göstərən “Bnai-Brith” adlı yəhudi təşkilatının (ABŞ yəhudi lobbisinə bağlı olan bu təşkilatın əsas fəaliyyəti dünyada yəhudilər əlayehinə yazılar və yazıların çap olunduğu mətbuat orqanları haqda hesabatlar hazırlamaqdır) F.Gülənin kitablarının hamısını pulsuz olaraq ingilis dilində yayımlamağı qərara alması mütəxəssisləri heyrətə gətirdi. Çünki F.Gülən moizələrində

yəhudiləri həmişə təfirləmir. **Hesab olunur ki, Gülənin təşkilatına verilən bu dəstək böyük ehtimalla şiəliyə və hər zaman güvənilməyən vəhabiliyə qarşı "ılımlı" İslam deyilən siyasəti yürütdüyü üçün verilir.**

## Şimali İraqda Fətullah məktəbləri

Bir qayda olaraq F.Gülənin məktəbləri Amerikanın öz təsiri altına almaq istədiyi ərazilərdə açılır. F.Gülən 1996-cı ildə "Aktual" jurnalına verdiyi müsahibəsində Ərbildə (Şimali İraq) məktəbi MİT-in (Türkiyə kəşfiyyat xidməti) dəstəyi ilə yaratdığını etiraf edir: "Ərbildə məktəb açanda orada Təlabani və Bərzani hakim idilər. Mən dövlət başçısına müraciət edərək bildirdim ki, dövlətin bu ərazidə məktəb açması zəruridir, əks halda oradakı türkmənlər kürdlərin içərisində əriyəcək. Əgər siz etməyəcəksinizsə, mən məktəb açacam. Onlar da "necə istəyirsən, elə də et" dedilər. Buna görə də biz məktəb açanda MİT və digər kəşfiyyat qurumları bizim yanımızda idilər, Ərbil bombalananda bizim məktəblərə dəymədilər. İraq hökuməti də, Bərzani də bu məktəbə toxunmadı. İndi orada ikinci, üçüncü məktəbin açılması haqda müzakirələr aparırıq". Hazırda Fətullahçıların Şimali İraqda üç təhsil mərkəzi var. Bu məktəblərlə MKİ-nin ciddi əlaqələri mövcuddur. Məktəblərin pulu MKİ-nin nəzarətində olan Beynəlxalq Demokratiya Fondundu (NED) tərəfindən ödənilir. 1994-cü ildə Ərbildə fəaliyyətə başlayan Özəl İşıq Kollecinin 140 tələbəsi, 16 işçi heyəti var. Məktəblərin tələbələri türkmən və kürd varlılarının övladlarıdır. Bu əlaqələrin fonunda Fətullahçıların kürdlərə yardım göstərməsi ilə bağlı Türkiyə Baş Qərargahının məlumatları da ortaya çıxdı. Eyni zamanda bütün dünya

üzərinə səpələnmiş Fətullah məktəblərinin həm də çirkli pulların yuyulması vasitəsi olduğu bildirlir.

Bu sistem belə çalışır: Xaricdəki məktəblər heç bir xeyir güdməyən vəqflər tərəfindən qurulur. Bu ölkələrdə belə vəqflər maliyyə yoxlamalarından kənarda qalır. Türkiyədən gətirilən müəllimlərə sənədlərdə 12-15 min dollar maaş ödənildiyi göstərilir. Amma bu pullar Türkiyəyə göndərilir, burada isə hər bir müəllifmin hesabına 500-600 dolar ödənilir. Yerdə qalan məbləğ isə digər işlərə xərclənir. Eyni zamanda Fətullahçıların yeni yaranmış türk respublikalarında neft biznesinə girişdiyi bildirilir. Məktəb açmaqla başlayan fəaliyyətləri sonradan mətbuat sahəsinə yayılır. Demək olar ki, bütün türk respublikalarında F.Gülənə bağlı "Zaman" qəzetinin yerli bölmələri nəşr olunur.

## Özbəkistanda Kərimova qarşı çevriliş

1999-cu ilin 16 fevralında Özbəkistan prezidenti İslam Kərimova sui-qəsd edildi. Kərimovun maşını keçən yola bomba qoyulmuşdu. Bomba partlasa da Kərimov sağ qaldı. Bundan sonra sui-qəsdçilərin əksəriyyəti yaxalandı. Sui-qəsd planının arxasından F.Gülən təriqəti çıxdı. F.Gülənin Daşkənddəki 6 məktəbi və biskivit fabriki işlədən "Üfüq" şirkəti bağlandı. Kərimov hakimiyyəti sui-qəsdin F.Gülənə məxsus "Ulugbeg İnternational School"da hazırlandığını ortaya çıxardı. 3 fətullahçı həbs olundu, 2 nəfər – Rustem Mamatkulov və Zayiniddin Askarov qaçaraq İstanbula gəldilər. Ancaq Kərimov hökumətinin tələbi ilə hər iki şəxs Özbəkistana təhvil verildi və Daşkənddə sui-qəsdin təşkilatçısı kimi edam olundular.

Kərimov Fətullahçıların MKİ ilə əməkdaşlıq edən şəriətçi terror qrupları ilə işləməsilə bağlı Türkiyə hökumətini xəbərdar etsə də rəsmi Ankara buna diqqət yetirmədi. Bu isə öz növbəsində Türkiyə ilə Özbəkistan münasibətlərində böhranla nəticələndi. Özbəkistan Türkiyədə təhsil alan bütün tələbələrini geri çağırdı.

**Fətullahçıların Rusiyada fəaliyyəti**

2002-ci ildə Rusiya hakimiyyəti Fətullah məktəblərində yoxlamalar keçirməyə başadı. 2004-cü ildə Rusiya prezidenti Putinin əmri ilə bu məktəblərin qapadılmasına start verildi. Eyni zamanda rəsmi Moskva Fətullah Gülənə bağlı məktəb və şirkətləri "amerikan və ingilis cəsusu yetişdirmə mərkəzi" adı ilə ciddi nəzarət altına aldı. Bununla paralel olaraq Rusiya yerli icra orqanlarında çalışan və vaxtı ilə Fətullah məktblərində təhsil almış şəxslərin müəyyən olunaraq işdən uzaqlaşdırılmasına göstəriş verildi.

Ancaq hələ buna qədər, 2000-ci ildə Rusiyanın "Nezavisimaya" qəzeti Fətullahçıların hökumət orqanlarına yerləşdirildiyini xəbər verirdi. Qəzetin yazdığına görə, Tatarıstanda 8, Başqırdıstanda 4, Qaraçay-Çərkəz, Çuvaşiya və Saxa-Yakutiyada hər birində fətullahçılara məxsus bir məktəb fəaliyyət göstərir. Məqalədə bu məktəblərin "Nurçular", "Serhat", "Palantökən", "Fəza və Çağ Öyrətim İnternational" kimi şirkətlər tərəfindən maliyyələşdirildiyini qeyd olunurdu. Qəzet bu məktəblərdə "radikal İslam və tək İslam dövləti qurulması" təbliğatının aparıldığını iddia edirdi. Bundan bir qədər sonra Rusiya Federal Təhlükəsizlik Xidmətinin

rəhbəri Nikolay Patruşev Türkiyə mətbuatına açıqlamasında keçirdikləri ən uğurlu əməliyyatlarından birini də türk cəsus şəbəkəsinin ifşa olunması olduğunu bildirdi. FSB rəhbəri 2002-ci ildə yaydığı məruzəsində Fətullah Gülən məktəblərində çalışan müəllimlərin cəsusluq fəaliyyətinin aşkar edildiyini və bu məktəblərin sahibi kimi "Tolerans", "Serhat" və "Ufuq" vəqflərinin adlarını çəkdi. 2003-cü ildə Başqırdıstan respublikasında fəaliyyət göstərən F.Gülən məktəblərində işləyən 10 müəllim ölkədən çıxarıldı. Başqırdıstan Təhsil Nazirliyi isə həmin müəllimlərin çalışdığı məktəbləri yaradan "Serhat" vəqfi ilə əlaqələri və razılaşmaları ləğv etdiyini açıqladı. Bundan az sonra Buryatiya Respublikasındakı F.Gülən məktəbləri haqqında araşdırmalar başlandı. "Milliyyət" qəzeti 2003-cü il sentyabr sayında F.Gülən məktəblərinin Rusiyada təmsilçisi kimi çıxış edən Tolerans vəqfinin rəhbəri Mustafa Kamal Şirinin ölkədən çıxarılması haqda xəbər yaydı. Bütün bunların ardınca Rusiya Təhsil Nazirliyi ölkədə fəaliyyət göstərən Fətullah Gülən məktəbləri haqqında araşdırmalara başladı. Araşdırmanın nəticəsi olaraq 10 məktəb və 50-yə yaxın türk müəllimi Rusiyadan çıxarıldı.

## Fətullah Gülən və AKP iqtidarı

Tansu Çillərin hakimiyyəti dönəmində Fətullah Gülənin mövqeləri xeyli möhkəmlənsə də, 1997-ci il hərbi çevrilişindən sonra vəziyyəti pisləşdi. Nəticədə Türkiyədəki təzyiqlərə dözməyərək ABŞ-a qaçdı. O zaman ABŞ hökuməti Fətullah Güləni Türkiyəyə təhvil vermədi. Burada boş dayanmayan F.Gülən AKP hökumətinin iqtidara gəlməsində MKİ-nin əsas köməkçisi kimi

fəaliyyət göstərirdi. Teyyub Ərdoğanın partiya qurmasında və TÜSİAD-la əlaqələr yaratmasında əsas vasitəçi F.Gülən idi. Fətullahçılar seçkilərdə fövqəladə şəkildə işləyərək böyük miqdarda pul xərclədilər. R.T.Ərdoğan Nəqşibəndi müridi olmasına baxmayaraq, hökumət komandasını bir təriqətlər koalisiyası olaraq qurdu. Kabinetdəki dörd nazir Fətullahçı idi: Dövlət naziri Mehmet Aydın, turizm naziri Erkan Mumcu, təhsil Naziri Hüseyn Çelik, iqtisadiyyat naziri Əli Babacan. Baş nazirin müavini və xarici işlər naziri Abdullah Gülün də Fətullah təriqətilə yaxın əlaqələri var. Gül nazir olduqdan sonra fətullahçı kadrlar XİN-ə yerləşdirilməyə başladı. İqtisadiyyata naziri Əli Babacanın F.Gülənə bağlı olan iş adamları dərnəyi İŞHAD-la yaxın əlaqələri mövcuddur. AKP hökuməti Fətullahçı iş adamlarına fəaliyyət üçün geniş imkanlar yaradır, onlar dövlətdən külli miqdarda kreditlər alır, Ərdoğanın xarici ölkələrə səfərlərində iştirak edirlər.

Daxili işlər naziri Əbdüqadir Aksu nəqşibəndi olmasına baxmayaraq fətullahçıların polis sistemində təşkilatlanmasına şərait yaratdı. Hazırda nazirliyin əsas idarələrinə fətullahçı kadrlar rəhbərlik edir. F.Gülən AKP-nin Fətullah təriqətinə mənsub Əskişəhər millət vəkili Məhərrəm Tozçökənin rəhbərlik etdiyi xüsusi təşkilat vasitəsilə polis orqanlarına hökm edir. Tozçökən millət vəkili olmamışdan əvvəl baş polis idarəsi rəisinin müavini idi. Məhz bu əlaqələrin nəticəsi idi ki, barəsində qiyabi həbs qərarı olmasına baxmayaraq, ədliyyə naziri Cəmil Çiçək F.Gülənin Türkiyəyə gəlməsində bir problemin olmadığını bildirdi.

Maraqlıdır ki, ABŞ-da elan olunan "Şərqi Türkistan hökuməti" qurulmasında da F.Gülənin və AKP hökumətinin əli vardı. Qondarma hökumətin başçısı və xarici işlər naziri Ənvər Yusif Turani F.Gülən təriqətinə mənsubdur. 1962-ci il təvəllüdlü Ənvər Yusif Çin hökumətinin təqiblərindən Səudiyyə Ərəbistanına qaçır, 1983-85-ci illərdə Türkiyədə yaşayan Ə.Yusif Turani soyadını da burada qəbul edir. Ə.Yusif İstanbulda dil öyrənmək üçün üzv olduğu ingilis mədəniyyət mərkəzinin xəttilə Amerikaya göndərilir və 1998-ci ildə ABŞ vətəndaşlığını qəbul edir. Türkiyəyə gəldikdən sonra Fətullahçılarla yaxın əlaqələr quran Ə.Yusif bu təriqətin üzv olur. Uyğur təşkilatları arasında o qədər də tanınmayan Ənvər Yusifin "baş nazir" olmasında F.Gülənin rolu böyükdür. Ənvər Yusifin əsas şəriki isə F.Gülənin papa ilə görüşündə iştirak edən Rüşdü Kayloncu idi. Fətullahın ən yaxın adamlarından sayılan R.Kayloncu uzun illərdir ABŞ-da yaşayır. Bir müddət isə ABŞ ədliyyə nazirliyində çalışdı. O, F.Gülənin MKİ və Pentaqonla əsas əlaqələndiricilərindən sayılır.

# BEŞİNCİ FƏSİL

## Fətullahçılar Azərbaycanda

Fətullah Gülən təriqətinin Azərbaycanda fəaliyyətə başlaması 1990-cı illərin əvvəllərinə təsadüf edir. Azərbaycan müstəqillik əldə etdikdən dərhal sonra Türkiyədən xeyli sayda iş adamı, ticarətçi, din təbliğatçısı

və digər peşələrin sahibləri Azərbaycana gələrək fəaliyyətə başladı. Türkiyədən Azərbaycana gələn ilk "qaranquşların" tərkibində üstünlük təşkil edənlər Fətullah Gülən təriqətinin üzvləri idi. Ölkədəki münbit şəraitdən, xüsusən də Türkiyə vətədaşlarına yaradılan imkanlardan yararlanan fətullahçılar az keçməmiş Azərbaycanda geniş iqtisadi, təhsil və media şəbəkəsi yarada bildilər. Azərbaycanda fəaliyyət göstərən türk şirkətlərinin böyük çoxluğu fətullahçılara məxsusdur. Bunların arasında "Azərsun" Holdinq kimi nəhəng şirkətlər qrupu, "Nil" mağazalar şəbəkəsi, Bakıda fəaliyyət göstərən bir çox türk restoranlarları və digər iqtisadi və ticarət müəssisələr var.

**Təhsil**

Fətullahçıların Azərbaycanda əsas fəaliyyətləri təhsil sahəsindədir. Son statistik məlumatlara görə Azərbaycanda fətullahçılara məxsus 14 litsey, "Çağ Öyrətim" hazırlıq kursu, "Qafqaz" universiteti və "Damla" tələbə yataqxanası fəaliyyət göstərir. Qeyd etmək lazımdır ki, fətullahçı litseylər əsasən Bakı şəhərində, sünni məzhəbli Şirvan və şimal bölgələrində yerləşir. Azərbaycanın mövcud təhsil qurumlarından qat-qat yüksək səviyyədə olan bu məktəblər əhali arasında böyük nüfuza malikdir. Məktəblərə şagirdlər müsabiqə yolu ilə qəbul edilir. Bu litseylər ödənişli olmasına baxmayaraq, övladlarının yüksək səviyyəli  təhsil almasını istəyən bir çox ailələr uşaqlarını bu məktblərə yerləşdirirlər. Fətullahçılara məxsus litsey və hazırlıq kurslarını bitirən abituriyentlərin böyük əksəriyyəti yüksək bal toplayaraq Azərbaycanın və Türkiyənin nüfuzlu universitetlərinə qəbul olunurlar. Hər il Tələbə Qəbulu üzrə Dövlət Komissiyası (TQDK) ali

məktəblərə qəbul olunan abituriyentlərin topladıqların mümkün balların siyahısını açıqlayarkən ən yüksək bal toplayan abituriyentlərin məhz fətullahçı məktəblərin şagirdləri olduğu bəlli olur.

1990-cı illərin ortalarında yarardılmış “Qafqaz” universiteti hazırda böyük bir təhsil mərkəzinə çevrilib. İki il öncə Xırdalan şəhəri ərazisində tikilmiş yeni universitet şəhərciyinə köçürülən “Qafqaz” universiteti Azərbaycanın nüfuzlu özəl təhsil müəssisələrindən sayılır. Burada təhsil yuxarı kurslarda ingilis dilində aparılır. Xüsusən də son illərdə universitetə maraq daha da artıb. Bu isə ali məktəbi bitirənlərin işə düzəlməsi üçün şəraitin yaradılması ilə əlaqələndirilir. Universiteti bitirən məzunların əksəriyyəti əsasən türk şirkətlərində işə düzəlir. Yüksək savad səviyyəsi olan, ingilis dilini, müasir informasiya texnologiyalarını yaxşı bilən bu tələbələrin yerli şirkət və dövlət orqanlarında işə düzəlməsi o qədər də çətinlik yaratmır.

**Media**

Fətullahçılar Azərbaycana ilk gəlişlərindən başlayaraq media şbəkəsi qurdular. 1991-ci ildən etibarən təriqətə məxsus “Zaman” qəzetinin Azərbaycan buraxılışı ayrıca qəzet kimi həftədə 5 dəfə (gündəlik) nəşr olunur, 1997-ci ildən yenə təriqətə məxsus “Samanyolu” televiziyasının Azərbaycan bölməsi və beynəlxalq şəbəkdə yayınlanan “Burç FM” radiosu fəaliyyətə başladı. Hazırda bu quruluşlara daha bir ad - “Zaman” qəzetinin idman əlavəsi də əlavə olunub.

## Təriqət təbliğatı və iş üslubu

Bütün bu – təhsil, media və biznes - fəaliyyəti ilə yanaşı fətullahçılar ənənəvi təbliğat üsulları sayılan “nur” evlərini yaşadırlar. Xüsusən də paytaxt Bakının bir çox ərazilərində evlər kirayələyərək burada təbliğatla məşğul olurlar. Sadə şəkildə baxdıqda Azərbaycanda nurçuların əsas təbliğatının iki müstəvidə üzərində qurulduğunu görə bilərik. Birinci yol, yuxarıda qeyd etdiyimiz kimi ənənəvi “nur” evlərində aparılan təbliğatdır. Nur tələbləri çalışdıqları şirkətlərdə, müəssisələrdə, təhsil aldıqları məktəblərdə münasib bildikləri gənclərə əvvəlcə sözdə nurçuluq ideyalarını aşılayırlar. Əgər qarşı tərəfdən müsbət reaksiya olrsa, o zaman təbliğatın növbəti mərhələsi kimi şərti “hədəfə” Səid Nursinin həyatı haqda videofilm, kitab və sair, həmçinin F.Gülənin əsərləri verilir. Əgər nəticə müsbət olarsa dəvətçi həmsöhbətini “nur” evinə dəvət edir. Burada olan “xoca” yeni gələn şəxsə nurçuluq təlimini ən gözəl şəkildə anladır. Bir neçə belə davamlı məclislərdən sonra həmin şəxsi nur tələbələrinin sırasına qəbul edirlər. Bu cür ənənəvi təbliğ vasitəsilə yanaşı daha çox üstünlük verilən təbliğat üsulu məktəblərdə aparılan təbliğatdır. Azərbaycanda F.Gülənə məxsus məktəblərdə oxuyan şagird və tələbələrə ən incə üsullarla nurçuluq təlimi aşılanır. Məhz bu cür təbliğatın nəticəsidir ki, bu məktəbləri bitirənlərin böyük əksəriyyəti, hətta ibadət etməyənləri belə fəal şəkildə islam (əslində isə nurçuluq) təbliğatçısı kimi çıxış edirlər. Bu məktəbləri bitirənlərin böyük əksəriyyəti ölkənin müxtəlif sahələrində (əsasən türk şirkətlərində) işə düzəlir, digər ali təhsil müəssisələri ilə müqayisədə “Qafqaz” universitetini bitirən məzunların iş tapması daha asan olur. Əldə olunan məlumatlara görə, nur

camaatı Azərbaycanda işsizlik və iş tapmaq üçün yaradılan problemləri bildikləri üçün bu məsələyə xüsusi diqqət yetirir, təbliğat zamanı işsizlik, nurçu olanların işlə təmin olunması məsələsini qabardırlar. Nurçuların hökumət strukturları, nüfuzlu dövlət məmurları arasında da tərəfdarları mövcuddur. Azərbaycan Dövlət Teleradio Şirkətinin bir il əvvələ qədər sədri olmuş Nizami Xudiyevin oğlunun fətullahçı təriqətin üzvü olması, həmçinin bir sıra dövlət orqanlarında çalışan əsasən gənclərdən ibarət kadrların nur təriqətinə mənsub olması haqda təsdiqlənmiş məlumatlar var. Məhz nurçuların Azərbaycan hakimiyyəti ilə yaxın münasibətlrinin nəticəsidir ki, onlara məxsus "Samanyolu" televiziyası artıq 10 ildir ki, ölkə ərazisində sərbəst şəkildə yayınlanır. Halbuki ötən dövr ərzində "TQRT", "NTV (Nərgiz), və "Kanal D" "TRT" və "Samanyolu" kimi Türkiyə televiziyaları bir müddət Bakıda yayınlandıqdan sonra qapadılıb. Hazırda Bakıda yalnız Türkiyənin rəsmi telekanalları yayınlanır. Bütün bunlar nurçuların Azərbay-canda böyük dayaqlarının olmasını təsdiqləyir. Eyni zamanda Azərbaycanda bir sıra işlərin pulla həll olunduğunu yaxşı bilən nur camaatının bir sıra dövlət vəzifələrinə öz adamlarını yerləşdirməsi haqda məlumatlar verilir. Hətta Türkiyədəki mənbələrdən aldığımız məlu-mata görə, 2005-ci ildə Azərbaycanda keçirilmiş parlament seçkiləri zamanı nur təriqətinə yaxın olan bir nəfərin təriqətin maddi dəstəyi sayəsində deputat seçdirilib.